

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 43 (783) ■ 4 noyabr 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Prezidenti Bakıdakı 6 saylı seçki məntəqəsində səs verib

*Noyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər keçirilib. Seçki prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün səhər saat 10-da xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəlib. Dövlət başçısı səsvermə otağına daxil olub, seçki bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izləyiblər.

Mehriban Əliyeva və ailə üzvləri də səs veriblər. Məntəqə seçki komissiyasının sədri Rüfət Həsənov ilk dəfə səs verməsi münasibətilə Heydər İlham oğlu Əliyevi Mərkəzi Seçki Komissiyasının adından təbrik edib.

Qeyd edək ki, bu seçki məntəqəsində 696 seçici qeydiyyata alınıb. Məntəqədə səsvermənin gedişini xarici müşahidəçilər, habelə qeyri-hökumət təşkilatlarının, müxtəlif siyasi partiyaların və namizədlərin nümayəndələri izləyiblər.

# Yeni sutəmizləyici qurğular kompleksi ən müasir standartlara cavab verir

Oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısına layihə üzrə görülən işlərlə bağlı məlumat verilərək bildirilib ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir. Təmizləyici qurğuya ötürülən suyun ilkin təmizlənməsi və onun həcminin müəyyən edilməsi mexaniki süzgəc binasında aparılır. Burada quraşdırılan avtomatik yuyulan torşəkilli süzgəclər suyun tərkibindəki iri hissəcikləri tutmaqla, ilkin təmizləmə prosesini həyata keçirir. Subölüşdürücü kameradan təmizləyici qurğuya çəkilən kəmərlərin hər birinin üzərində ultrasəs prinsipinə əsaslanan sayğaclar quraşdırılıb və onlar emala yönəldilən xam suyun həcmini dəqiq ölçməyə imkan verir. Mexaniki süzgəclərdə ilkin təmizləmədən keçən su 10 min kubmetr tutumu olan xam su anbarına toplanır. Burada quraşdırılmış səviyyəölçən və siyirtmələr daxil olan, eləcə də emala ötürülən suyun həcmini onlayn rejimdə tənzimləyir. Yeni kompleksin əsas obyekti ultrasüzgəcli sutəmizləyici qurğudur. 5,6 hektar ərazidə yerləşən bu qurğu mürəkkəb geoloji ərazidə inşa olunub. Qruntun xarakteri nəzərə alınaraq burada əvvəlcə bərkitmə işləri aparılıb, sonra dəmir-beton və metal konstruksiyadan ibarət əsas bina inşa edilib.

Prezident İlham Əliyev kompleksdə yaradılan şəraitlə tanış olub.



Qurğuda emal prosesinin fasiləsizliyini təmin etmək üçün süzgəclər müəyyən müddətdən bir yuyularaq asılı maddələr və lildən təmizlənir. Süzgəclərin təmizlənməsi geriyuma və kimyəvi dozalama nasoslarının köməyi ilə həyata keçirilir. Proses növbəli rejimdə aparılır, yəni qurğunun bir hissəsində geriyuma və kimyəvi dozalama aparılarkən, digər hissələrdə suyun emalı davam edir. Bu da öz növbəsində, emal prosesinin fasiləsizliyini təmin edir. Qurğuda quraşdırılan 5280 modulun məhsuldarlığı saniyədə 6,6 kubmetrdir. Gələcəkdə əlavə modulların quraşdırılması, eləcə də elektromexaniki sistemin köməyi ilə emal gücünün artırılaraq saniyədə 7,5 kubmetrə çatdırılması mümkündür. Süzgəclərdən çıxan içməli suyun keyfiyyətinə onlayn rejimdə nəzarət olunur. Bu məqsədlə xüsusi analiz panelləri quraşdırılıb ki, onlar suyun keyfiyyət parametrləri barədə siqnalları birbaşa SCADA otağına ötürür. Bununla yanaşı, burada yaradılmış laboratoriyada istər xam suyun, istərsə də emal olunmuş təmiz suyun vacib parametrləri daha dəqiq şəkildə öyrənilir və keyfiyyət göstəriciləri tam nəzarətdə saxlanılır.

Ultrasüzgəcli təmizləyici qurğuda emal olunan təmiz suyun nisbətən hündürlükdə yerləşən anbara qaldırılması üçün nasos stansiyası tikilib. Suyun optimal paylanması və elektrik enerjisindən asılılığın aradan qaldırılması məqsədilə dəniz səviyyəsindən 118 metr hündürlükdə 50 min kubmetr həcmində anbar kompleksi inşa olunub. Qurğudan anbara qədər 11 kilometr uzunluğunda kəmər çəkilib. Anbar layihələndirilərkən onun Oğuz-Qəbələ-Bakı su kəmərinin bölüşdürücü kamerası ilə əlaqəsinin yaradılması üçün yeni qaldırıcı nasos stansiyası quraşdırılıb. Bu işlər Ceyranbatan və Oğuz-Qəbələ-Bakı su mənbələrinin alternativ istismarına şərait yaratmaqla, Abşeron yarımadasının içməli su təchizatında etibarlılığın təmin olunmasını şərtləndirib.

Kompleksdə emal olunan su istehlakçılara Ceyranbatan-Zirə magistral kəməri ilə ötürülür. Kəmərin 61 kilometrlik Ceyranbatan-Balaxanı-Ramana-Qala hissəsinin tikintisi 2013-cü ildə, 22,5 kilometrlik Qala-Zirə hissəsinin tikintisi isə 2014-cü ildə başa çatdırılıb. Əsasən Abşeron yarımadasının qəsəbə və kəndlərinin su təchizatına hesablanan Ceyranbatan-Balaxanı-Ramana-Qala-Zirə kəməri ilə ötürülən suyun səmərəli paylanması, bu ərazilərdə əhalinin fasiləsiz su təminatına nail olunması üçün kəmərin marşrutu boyunca tutumu 90 min kubmetr olan Saray, Balaxanı, Ramana, Qala və Zirə anbarları tikilib. Gələcəkdə Masazır və Binəqədidə yeni anbarların tikilməsi, eləcə də mövcud anbarların genişləndirilməsi nəzərdə tutulur ki, bunun nəticəsində 200 min kubmetrdən artıq su ehtiyatı yaradılacaq. Bu da magistral kəmərdə və paylayıcı şəbəkələrdə sabit, dayanıqlı hidravlik rejimin təmin olunmasına, həmçinin qəza və planlı dayanmalar zamanı fasiləsiz su təchizatının aparılmasına imkan verəcək.

Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Ceyranbatan-Zirə magistral su kəməri layihəsi Pirallahı qəsəbəsi də daxil olmaqla, Bakı şəhəri və Abşeron yarımadasının digər yaşayış məntəqələrini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edəcək. Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin yaradılması layihəsi çərçivəsində, ümumilikdə, 30 kilometr uzunluğunda müxtəlif diametrli boru, 116 nasos, 6 transformator quraşdırılıb, ərazidə yaşıllaşdırma işləri görülüb, 150 minə yaxın ağac və kol əkilib. Kompleksin ayrı-ayrı hissələrinin tikintisi və quraşdırılmasına dünyanın bu sahədə məşhur ixtisaslaşmış şirkətləri, həmçinin 30-dək yerli podratçı təşkilat cəlb olunub.

Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini işə salıb. Mərasimdə çıxış edən dövlətimizin başçısı bildirib ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı böyük və tarixi hadisədir. Bundan sonra Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə veriləcək su Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verəcək.

# Dövlət başçısı beynəlxalq təşkilatların nümayəndə heyətlərini qəbul edib

Prezident İlham Əliyev noyabrın 2-də MDB İcraiyyə Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə MDB müşahidəçi missiyasının rəhbəri Sergey Lebedevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Sergey Lebedev bu il rəhbərlik etdiyi missiyanın MDB-nin müxtəlif ölkələrində öz fəaliyyətlərini uğurla həyata keçirdiyini deyib. Azərbaycandakı seçkilərdə rəhbərlik etdiyi təşkilatdan 147 nəfərdən ibarət nümayəndə heyətinin iştirak etdiyini vurğulayan S.Lebedev bildirib ki, missiya adətən nümayəndələrin sayını ölkələrlə razılaşma əsasında müəyyənləşdirir və öz müşahidələrini həmin ölkənin qanunvericiliyinin tələblərinə uyğun şəkildə həyata keçirir. Milli Məclisə seçkilərdən danışan Sergey Lebedev deyib: «Biz məmnunluqla və birmənalı şəkildə bildiririk ki, Milli Məclisə seçkilər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilib və ölkə vətəndaşları azad seçim imkanı ilə tam təmin olunub».

Dövlətimizin başçısı bu təşkilatın ölkə qanunvericiliyinə əsaslanan obyektiv yanaşmasının və qətiyyən siyasiləşdirilməmiş mövqeyinin önəmini qeyd edib və bildirib ki, Azərbaycanın dəvətinə baxmayaraq, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu əsassız sayda müşahidəçilərin ölkəyə gəlməsini israr edib. Bu zaman onlara müşahidəçilərin sayının ölkə əhalisinin sayına uyğunlaşdırılması təklif olunduqda isə seçkiləri müşahidə etməkdən imtina ediblər. Beynəlxalq qurumun bu hərəkətinin qəbuledilməz olduğunu deyən Prezident İlham Əliyev bütün bunlara baxmayaraq Avropa Şurasının Parlament Assambleyasının, Müstəqil Dövlətlər Birliyinin, digər beynəlxalq strukturların və ölkələri təmsil edən çoxsaylı müşahidəçilərin seçki prosesini izlədiklərini vurğulayıb.

- - - - - - - - - - - - - - - - - - - -

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 1-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Daimi Komitəsinin həmsədri, Filippin parlamentinin Nümayəndələr Palatasının keçmiş sədri Jose de Venesia və təşkilatın Daimi Komitəsinin həmsədri və baş katibi Çunq Eu Yonqu da qəbul edib. Jose de Venesia Azərbaycanda parlament seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu və keçirildiyini deyib. Həmsədri olduğu təşkilatda Asiyanın 340-a qədər iqtidar və müxalifət partiyasının təmsil olunduğunu vurğulayan qonaq Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolunun əsasının Bakıda, həmçinin Gənclər Qolunun əsasının isə Azərbaycan paytaxtında və Kuala Lumpurda qoyulmasını məmnunluqla qeyd edib: «Sizin rəhbərliyiniz və Yeni Azərbaycan Partiyası sayəsində hökumətinizlə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı arasında çox güclü, sağlam və dinamik əlaqələr mövcuddur».

Asiyadan olan tərəfdaşlarımızla əməkdaşlığın əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Azərbaycanın Asiya siyasi partiyaları ilə əlaqələri genişləndirməyə önəm verdiyini qeyd edib. Dost ölkələrlə əlaqələri gücləndirməyin zəruriliyini bildirən Prezident İlham Əliyev partiyalar arasında siyasi dialoqun həyata keçirilməsinin əhəmiyyətini vurğulayaraq, bu sahədə əməkdaşlığın genişləndirilməsinin ölkələrarası münasibətlərin möhkəmləndirilməsi işinə töhfə verəcəyini deyib.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRLİYİNDƏ KADR DƏYİŞİKLİKLƏRİ APARILIB 2

XİDMƏT STRUKTURLARININ FƏALİYYƏTİ MÜZAKİRƏ OLUNUB 3

AZƏRBAYCAN «DOING BUSINESS 2016» HESABATINDA 17 PİLLƏ İRƏLİLƏYİB 4

«ASAN XİDMƏT» – VƏTƏNDAŞ MƏMNUNLUĞUNUN ÜNVANI 5

# Vergilər Nazirliyində kadr dəyişiklikləri aparılıb

Vergilər naziri Fazil Məmmədovun əmri ilə Vergilər Nazirliyinin bir sıra struktur vahidlərinin rəhbərliyində kadr dəyişiklikləri aparılmışdır. Bakı Vergilər Departamentinin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Habil Məmmədov nazirliyin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi, vergilər nazirinin audit və operativ nəzarət sahələri üzrə müşaviri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlqar Əhmədov Bakı Vergilər Departamentinin rəisi, vergilər nazirinin müşaviri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Zaur Fətizadə Bakı Vergilər Departamenti rəisinin 1-ci müavini, İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi, baş vergi xidməti müşaviri İlkin Vəliyev Bakı Vergilər Departamenti rəisinin müavini, Bakı Vergilər Departamenti rəisinin 1-ci müavini, baş vergi xidməti müşaviri Raqif Qurbanov isə Bakı Vergilər Departamenti rəisinin müavini vəzifələrinə təyin olunmuşlar.

# Məqsəd intizamsız vergi ödəyicisini cəzalandırmaq deyil, vergilərin vaxtında və tam həcmdə ödənilməsini təmin etməkdir

Vergi öhdəliklərinin icra edilməsinin təkmilləşdirilməsi Vergilər Nazirliyinin daim diqqətdə saxladığı məsələlərdəndir. Nazirlik istər könüllü əməletmə səviyyəsinin yüksəldilməsi, istərsə də vergi borclarının alınması ilə bağlı mövcud qanunvericilikdəki bütün stimullaşdırıcı müddəalardan yararlanmağa üstünlük verir. İlk növbədə vergi borcunun yaranma səbəbləri araşdırılır, borcun ödənilməsi ilə bağlı vergi ödəyicisinin imkanları dəyərləndirilir və borcun yönəldilməsi üçün mənbələr dəqiqləşdirilir. Nazirlikdə borclu vergi ödəyiciləri barədə məlumat bazası yaradılmış və həmin ödəyicilər müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə bölüşdürülmüşdür. Bu məlumat bazasının yaradılması vergi borcunun ödənilməsi istiqamətində daha tez nəticə verə biləcək metodların seçilməsinə, borclu vergi ödəyicilərinin müvafiq risk qruplarına ayrılması isə görülmüş və görüləcək işlərə nəzarətin daha da səmərəli şəkildə həyata keçirilməsinə şərait yaradır.

Mövcud qanunvericilik vergi ödəyicisinə vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi ilə bağlı vergi orqanına müraciət etmək hüququ verir: vergi ödəyicisi vergi öhdəliyinin yerinə yetirilməsi müddətini vergi ili ərzində 1 aydan 9 ayadək uzada bilər. Bundan başqa, 2013-cü il yanvarın 1-dən vergi ödəyicilərinin «Vergi partnyorluğu sazişi»nin bağlanılması üçün vergi orqanlarına müraciət etmək hüququ təsbit olunmuşdur. Vergi orqanları ilə vergi ödəyiciləri arasında bağlanmış «Vergi partnyorluğu sazişi» vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanılmış niyyət razılaşması olmaqla yanaşı, vergi ödəyicilərinə bir sıra üstünlüklər də verir. Bu sazişi bağlamaq istəyən vergi ödəyiciləri ilk öncə büdcə qarşısında bütün vergi öhdəliklərini yerinə yetirməlidirlər.

Hazırda vergi borcları barədə məlumatların vergi ödəyicilərinə çatdırılması üçün bir sıra vasitələrdən istifadə edilir: vergi ödəyicilərinə bildiriş və xəbərdarlıqların göndərilməsi ilə yanaşı, onların vergi orqanlarında olan mobil telefon nömrələrinə borc məbləğləri barədə qısa mesajlar göndərilir. Bununla da vergi borcu barədə məlumatın vergi ödəyicisinə vaxtında çatdırılması vergi borclarının operativ qaydada alınmasına kömək göstərir.

Hazırda vergi borclarının azaldılması üçün stimullaşdırıcı tədbirlərin siyahısını genişləndirmək məqsədilə mövcud beynəlxalq təcrübə araşdırılır. Gələcəkdə bununla bağlı Vergi Məcəlləsində müvafiq dəyişikliklər edilməsi istisna olunmur.

**Cinayət Məcəlləsinin 213-cü maddəsinin qeyd hissəsinin tələblərinə əsasən, cinayət tərkibi yaratmış vergi borcu ilə əlaqədar əməl ilk dəfə törədildikdə və cinayət nəticəsində vurulmuş ziyan tamamilə ödənildikdə, vergi ödəyicisi cinayət məsuliyyətindən azad oluna bilər**

**Rəşad SADIQOV**

# Muzdlu işlə əlaqədar əldə edilən gəlir və vergilər

**Muzdlu iş dedikdə, əmək qanunvericiliyinə uyğun olaraq müqavilə (kontrakt) əsasında haqqı ödənilməklə yerinə yetirilən əmək fəaliyyəti başa düşülür. Fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya faydadır.**

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin monitorinqi və təkmilləşdirilməsi şöbəsinin rəisi Niyaz Şükürov mövzuya şərh verərkən bildirib ki, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən vergi ödəyiciləri fiziki şəxslərin aylıq gəlirlərini hesablayaraq qanunda nəzərdə tutulan dərəcələrə uyğun olaraq, ödəmə mənbəyində gəlir vergisi tutmalı və növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli, ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni isə ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

Fiziki şəxslərin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 250 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli məbləğində olan hissəsi (2015-ci il üzrə 140 manat) azaldılır. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

Dövlət sosial təminat sistemi vasitəsilə ödənilən pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən və vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən fərdi sahibkarlar və xüsusi notariuslar da yuxarıda göstərilən dərəcələrə uyğun olaraq ödəmə mənbəyində gəlir vergisi tutmalı və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli, həmin müddətədək də ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

Vergilər Nazirliyi tərəfindən əmək münasibətlərinə vergi nəzarəti haqqında konsepsiya hazırlanmış, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə 3 saylı Əlavə edilmişdir. Qeyd edək ki, konsepsiya vergi nəzarəti tədbirləri ilə əhatə olunan vergi ödəyicilərində muzdlu işlə əlaqədar ödənilmiş gəlir vergisi üzrə uyğunsuzluqların araşdırılması və kənarlaşmalar üzrə fərdi yanaşma prinsipi əsasında vergilərin hesablanmasını müəyyən edir.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinə 3-cü Əlavə, Vergi Məcəlləsinin 98-ci və 150-ci maddələrinə əsasən, Azərbaycan Respublikasının ərazisində muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin ödəyicisi sayılan vergi ödəyiciləri tərəfindən tərtib edilir, ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən illik bəyannamə ilə birlikdə, digər vergi ödəyiciləri tərəfindən isə 4-cü rübün bəyannaməsi ilə eyni zamanda ləğvolunma və ya bu tədiyyə üzrə fəaliyyətini dayandırdığı tarixə bəyannamə ilə birlikdə təqdim edilir.

Milli Məclisin İqtisadi siyasət komitəsinin iclasında «Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» qanun layihəsinin müzakirəsi zamanı irəli sürülən dəyişikliyə əsasən, fiziki şəxsin əsas iş yerində hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30.000 manatadək olduqda isə ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azad edilir. Qeyd olunan dəyişikliyin 2016-cı il yanvarın 1-dən qüvvəyə minəcəyi gözlənilir. Hazırda qüvvədə olan qanunvericiliyə əsasən, fiziki şəxsin əsas iş yerində aylıq gəliri 250 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun bir misli, illik gəliri 3 min manatadək olduqda isə ölkə üzrə yaşayış minimumunun 12 misli qədər olan hissəsi gəlir vergisindən azaddır.

**Fəxriyyə İKRAMQIZI**

# «ASAN imza» xidməti populyarlaşır

## *İndiyədək 18 minə yaxın «ASAN imza» sertifikatı verilib*

«ASAN imza» (Mobil ID) - elektron xidmətləri həyata keçirən istifadəçinin mobil telefon vasitəsilə autentifikasiyasını, sənədin elektron imzalanmasını və imzalayan şəxsin şəxsiyyətinin müəyyən olunmasını təmin edən xidmətdir. Sadə desək, «ASAN imza» kimliyimizi təsdiqləyən mobil identifikasiya vasitəsidir, elektron xidmətlər mühitinə giriş üçün təhlükəsizlik aləti hesab edilir və rəqəmsal formada imza qoyulmasına imkan verir. Vergilər Nazirliyi və mobil operator tərəfindən verilən bu imza mövcud e-xidmətlərin hamısından istifadəni mümkün edir.

«ASAN imza» mobil elektron imza texnologiyasının əsas üstünlükləri bundadır ki, ondan istifadə etməklə smart-kartın oxunması və proqram təminatı üçün əlavə qurğulara ehtiyac qalmır. Bu xidmətin istifadəsi üçün autentifikasiya və elektron imzanın rəqəmsal açarlarının saxlanıldığı SİM kartı olan mobil telefon kifayətdir. Sadə və təhlükəsiz «ASAN imza» 2013-cü ilin may ayından istifadəyə verilib və ölkəmizdə mövcud qanunvericiliyin bütün tələblərinə tam uyğun gələn yeganə mobil elektron imza hesab edilir. Hazırda ölkənin hər üç mobil operatoru tərəfindən abunəçilərə «ASAN imza» xidməti göstərilir. Ölkə qanunvericiliyinə əsasən, «ASAN imza» ilə imzalanan sənədlər əl ilə edilmiş imzaya bərabər tutulur. İdentifikasiya və rəqəmsal imzalama yüksək səviyyəli texnologiya və müvafiq PIN-kodlar vasitəsilə qorunur.

«ASAN imza» SİM kartının üzərində PİN 1, PİN 2, PUK təhlükəsizlik kodları olur. PİN 1 sistemə autentifikasiya olunanda, PİN 2 isə elektron sənədlərin imzalanması zamanı istifadə olunur. PUK isə PİN kodlar 3 dəfədən artıq yanlış daxil edildikdə SİM nömrəsinin bloka düşməsi və ya PİN 1 və PİN 2 kodlarının dəyişdirilməsi zamanı istifadə olunur. PİN kodları itdikdə və ya unudulduqda Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etmək lazım gəlir. Müraciət edən şəxsə mövcud rəqəmsal ID-kart ilə işləyən yeni PİN kodlar verilir. Mobil telefon e-imza smart-kart və kart oxuyucusu kimi eyni zamanda istifadə oluna bilər.

Mobil operatorlar 3 növ «ASAN imza» SİM kartı verir:

- fiziki şəxslər (vətəndaşlar);
- hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;
- dövlət qulluqçuları üçün.

Fiziki şəxslər üçün elektron imza kartı şəxsi istifadə məqsədilə nəzərdə tutulur. Hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin dövlət qulluqçuları üçün nəzərdə tutulan elektron imza sertifikatları isə kommersiya və ya dövlət təşkilatını təmsil etmək və onun adından çıxış etmək səlahiyyətləri verir. Sertifikatların - autentifikasiya, şəxsi, iş, dövlət və bələdiyyə növləri var.

Bu ilin üçüncü rübü ərzində Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən 10.451 ədəd sertifikat verilib. Bunlardan 5237-si «şəxsi», 4949-u «iş», 265-i isə «dövlət və bələdiyyə» sertifikatları olub. Ümumilikdə isə sentyabrın sonunadək verilən «ASAN imza» sertifikatlarının sayı 179.011 ədəd təşkil edib. Bunlardan 87.879-u «şəxsi», 83.898-i «iş», 7234-ü isə «dövlət və bələdiyyə» sertifikatları olub.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən 2015-ci ilin III rübü ərzində verilən sertifikatlar**




*«ASAN imza» xidmətindən istifadə etmək üçün müraciət edən şəxs mobil operatorlardan «ASAN imza» SİM kartını əldə etməli, tələb olunan sənədlər və SİM kart ilə birlikdə Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət etməlidir. ASXM-də ərizəçi tərəfindən təqdim olunmuş sənədlərin düzgünlüyü yoxlanılır. Təqdim olunmuş sənədlər düzgün olduqda müraciət etmiş şəxslə ASXM arasında yazılı müqavilə bağlanılır və ona sertifikat verilir. Sənədlər düzgün olmadığı halda isə sertifikatın verilməsindən imtina edilir. Sertifikatın verilməsi üçün ərizəçi ilə müqavilə bağlanmazdan əvvəl o, sertifikatın və imza vasitələrinin istifadə qaydaları, ASXM-in hüquqi statusu və akkreditə vəziyyəti barədə məlumatlandırılır. Hazırlanmış sertifikat ərizəçiyə kağız daşıyıcıda və elektron formada təqdim edilir. «ASAN imza» SİM kartı üzrə sertifikat 1 iş*

**AYTƏN**

# Sahibkarlarla yeni münasibətlər formalaşdırılır

«Caspian European Club» və Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə keçirilən biznes forumunun əsas mövzusu sahibkarlarla gömrük orqanı arasında yeni münasibətlərin formalaşmasına, gömrük sistemində tətbiqi nəzərdə tutulan yeniliklərə həsr olunub.

Forumda çıxış edən Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyev bildirib ki, ölkə Prezidentinin tapşırığına uyğun olaraq, gömrük sahəsində yoxlamaların sadələşdirilməsi ilə bağlı işlər yaxın vaxtlarda başa çatdırılacaq. Hazırda hər bir şəxsin ehtiyacına uyğun illik mal gətirilməsi və malların çeşidi, həcmi ilə bağlı qiymətləndirmələr aparılır. Yeni qaydalara əsasən, ümumi gömrük dəyəri 10 min dolларadək malların gömrük sərhədindən gömrük ödənişi edilmədən keçirilməsi o şəxslərə şamil ediləcək ki, bu malları ölkəyə öz tələbatları üçün gətirirlər. Kommersiya və istehsalat məqsədləri üçün mal gətirənlər isə vergiyə cəlb olunacaqlar. Bildirilib ki, dövlət büdcəsinin əsas formalaşma bazası vergilər və gömrük rüsumlarıdır, buna görə də kommersiya və istehsalat fəaliyyəti ilə məşğul olan şəxslər idxal-ixrac əməliyyatları zamanı vergiyə cəlb ediləcəklər.

Qeyd olunub ki, bizneslə açıq dialoq məqsədilə dövlət qurumları ilə özəl sektor arasında davamlı işgüzar görüşlərin keçirilməsi nəzərdə tutulur. Görüşlərdə sahibkarlıq sektorunun nümayəndələrinin rəy və təklifləri dinləniləcək, onları narahat edən məsələlər öyrəniləcək, meydana çıxan problemlərin aradan qaldırılması üçün həll yolları birgə müzakirə ediləcək.

Gömrük sistemində informasiya texnologiyalarından istifadəyə geniş yer verilir. Sərhəd-buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin qeydiyyatında və yoxlanılmasında «bir pəncərə» prinsipinin həyata keçirilməsi üzrə plana uyğun olaraq, Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) təkmilləşdirilib, gömrük postlarında VAİS-RİSK sistemi tətbiq olunur.

Hazırda «e-gömrük bəyannaməsi» və «e-monitorinq» xidmətlərinin istifadəyə verilməsi üzərində iş aparılır. Bununla yanaşı, gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi üçün bəzi ölkələrlə vahid informasiya sisteminin yaradılması , gömrük-keçid məntəqələrinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Ölkəmizin beynəlxalq ticarətdə mal dövriyyəsinin sürətlənməsi və idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, malların dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısının alınması, gömrük əməkdaşlarının peşəkar bacarıqlarının artırılması və gömrük orqanlarının maddi-texniki təchizatının möhkəmlənməsi istiqamətində də tədbirlər davam etdirilir.

Gömrük xidmətində «bir pəncərə» sisteminin, «bir dayanacaq», «sürətli keçid» beynəlxalq prinsiplərinin tətbiqinin genişləndirilməsi, gömrük nəzarətinin və rəsmiləşdirilməsinin sadələşdirilməsi, sərf olunan vaxtın minimuma endirilməsi məqsədilə müasir təchizata malik gömrük terminallarının tikilməsi nəzərdə tutulur.

Azərbaycanın beynəlxalq ticarət sisteminin mühüm vasitələrindən biri olan «Ümumiləşdirilmiş Preferensiyalar Sistemi Proqramı»na («GSP») qoşulması və proqramda nəzərdə tutulan meyarların tətbiqi Avropa bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradır. Bu isə respublikamızın ixrac potensialının genişləndirilməsi və ixracın strukturunun şaxələndirilməsi baxımından əhəmiyyətlidir.

**ELBRUS**

# Xidmət strukturlarının fəaliyyəti müzakirə olunub

Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət strukturlarının fəaliyyətinə həsr olunmuş iclasında 2015-ci ilin 9 ayında görülmüş işlərin nəticələri, habelə yol verilmiş nöqsan və çatışmazlıqlar, eləcə də nazirliyin son kollegiya iclasında bu sahəyə aid tapşırıq və göstərişlər və qarşıda duran vəzifələr müzakirə edilmişdir.

Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov bildirmişdir ki, xidmət sahəsində çalışan əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə zəruri tədbirlər görülür. Bəyannamələrin vaxtında təqdim edilməsi göstəricisinin maksimum artırılmasına xüsusi əhəmiyyət verilir və bu, bəyannamələrin sonradan alınması hallarının azalmasına gətirib çıxarır. Qeyd edilmişdir ki, dövlətdən sosial yardım alanların cərimələnməməsi üçün onların siyahısının dəqiqləşdirilməsi, fəaliyyəti aktiv olduğu halda, onlara ünvanlı xidmətlərin göstərilməsi, eyni zamanda VÖEN alıb sonradan sosial yardım ala bilməyən şəxslərin müəyyənləşdirilərək müvafiq məlumatlandırma tədbirlərinin görülməsi vacib vəzifələrdəndir. Xidmət strukturlarının əməkdaşlarına bundan sonra vergi orqanlarına müraciət edən şəxslərə daha diqqətlə yanaşmaları, vergi öhdəliyi və vəzifələri barədə onlara zəruri izahatların verilməsi tapşırılmışdır.

Cari ildə Universal Çağrı Mərkəzinin fəaliyyətə başladığı, vergi ödəyicilərinə xidmət mərkəzlərində növbə və qeydiyyat aparatlarının, səsyazma və videomüşahidə qurğularının quraşdırılması işlərinin 33 xidmət mərkəzində tamamlandığı qeyd edilmişdir.

Dövlət orqanlarının internet səhifələri vasitəsilə ictimai informasiyaların açıqlanması vəziyyətinin 2015-ci il üzrə aparılan növbəti monitorinqinin nəticələrinə görə, nazirliyin rəsmi internet səhifəsi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəsmi internet resursları sırasında ardıcıl olaraq 7-ci dəfə birinci yerə layiq görülmüşdür.

Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Azərbaycan Respublikası Fəaliyyət Proqramı çərçivəsində Tvinninq yardım alətinin tətbiqi üçün Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin təqdim etdiyi «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək» layihəsi 19 dövlət orqanının verdiyi 34 layihə arasından fərqləndirilmiş 4 layihədən biri olmuşdur. Bu dövrdə yeni nəsil elektron xidmətlərin yaradılması istiqamətində işlər davam etdirilmiş və ilk xidmət - Çağrı Mərkəzi vasitəsilə «Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsi» xidməti istifadəyə verilmişdir.

Doqquz ay ərzində vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etmiş 26.285 şəxsdən 24.765-nə 37.049 xidmət göstərilmişdir. Vergi ödəyiciləri, bələdiyyələr, şagird-tələbələr və «Vergi dostları» ilə, həmçinin metodiki kabinetlərdə ümumilikdə 1298 görüş keçirilmiş, 14.712 ünvanlı məlumatlandırma xidməti göstərilmişdir. Həyata keçirilmiş məlumatlandırma tədbirləri nəticəsində bəyannamələrin ümumilikdə 90,9 faizi vaxtında təqdim edilmiş, bəyannamələrin 95,1 faizi elektron formada verilmişdir.

Vergi orqanları tərəfindən yol verilmiş nöqsanlara toxunan məruzəçi bəzi hallarda xidmət sahəsi üzrə fəaliyyətin qiymətləndirilməsinin kriteriya göstəricilərinə əməl edilmədiyini, xidmət mərkəzlərində xidmətin yalnız bir təmsilçi tərəfindən göstərildiyini, bir sıra hallarda növbə qrafikinə düzgün əməl olunmadığını bildirmişdir. Mərkəzlərin əksəriyyətində vergi orqanları və onun vəzifəli şəxsləri barədə şikayət xarakterli müraciətlərin qeydə alınması üçün müraciət vərəqələri tərtib edilməmişdir. Xidmət mərkəzləri tərəfindən 2015-ci ilin 9 ayı ərzində qəbul edilmiş müraciət vərəqələrindən 59 ədədinin cavabı isə Bakı Vergilər Departamenti tərəfindən aidiyyəti üzrə vaxtında çatdırılmamışdır. 19 təmsilçi barədə məsuliyyət tədbiri görülmüş və ya xəbərdarlıq edilmiş, xidmət strukturlarının əməkdaşlarının hərəkət və ya hərəkətsizliyinə aid 39 müraciət daxil olmuşdur.

İclasda Vergilər Nazirliyinin beynəlxalq münasibətlər, vergi ödəyicilərinə xidmət və tədris sahələri üzrə nazirin müşaviri Ələkbər Məmmədov, Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Bəyannamələr, vergi ödəyicilərinə xidmət və uçot idarəsinin rəisi Ağəmi Tahirov, 12 saylı Ərazi Vergilər Departamentinin Vergi ödəyicilərinin xidmət şöbəsinin rəisi Azər Məmmədov və Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin 1-ci müavini Elçin Məmmədov, rəis müavini Məhəmməd Yunusov da çıxış etmişlər.

# Kassa çekləri istehlakçılara hüquqi təminat verir

*Bəzi işbazlar həm istehlakçıların hüquqlarını pozur, həm də vergidən yayınmağa cəhd göstərirlər. Bunun qarşısını almaq yalnız dövlət orqanlarının işi olmamalıdır, ictimaiyyət öz hüquqlarını fəal şəkildə qorumalıdır. İstehlakçı hüquqlarının müdafiəsi üçün ən təsirli addım alınan istənilən mala görə nəzarət-kassa aparatından çıxarılmış çekləri əldə etməkdir. Çek malın haradan alınmasını təsdiqləyən rəsmi sənəddir. Satıcılar mal satarkən istehlakçıya qəbz, kassa çeki və ya digər yazılı sənəd verməyə borcludurlar. Əks təqdirdə, Vergi Məcəlləsinin 58-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməyən və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq edilmiş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə böyük məbləğdə cərimələr tətbiq olunur. Artıq bu cərimələrin bir neçə dəfə artırılması ilə bağlı Vergi Məcəlləsinə təklif edilmiş əlavə və dəyişikliklər Millli Məclis tərəfindən qəbul olunmuşdur.*




Azərbaycan Respublikası Mülki Məcəlləsinin və «İstehlakçı hüquqlarının müdafiəsi haqqında» Qanunun tələblərinə görə, alıcı aldığı malı dəyişdirə bilər. Əgər satıcıda dəyişdirmək üçün zəruri mal yoxdursa, alınan mal mağazaya qaytarılır və alıcının ödədiyi pul tam məbləğdə özünə verilir. İstehlakçı qeyri-ərzaq malını aldığı andan 14 gün ərzində onu geri qaytarmaq hüququna malikdir.

İnzibati Xətalar Məcəlləsinə daxil edilmiş 228.0.13-cü maddəyə əsasən, qanunvericilikdə nəzərdə tutulan hüquqlarla müqayisədə istehlakçının hüquqlarını məhdudlaşdıran şərtlərin müqavilələrə daxil edilməsi inzibati xəta tərkibi yaradır və istehlakçıların hüquqlarının pozulması kimi qiymətləndirilir. Bu cür hərəkətlərə yol verən vəzifəli şəxslərə 1500 manatdan 2000 manatadək, hüquqi şəxslərə isə 4000 manatdan 5000 manatadək miqdarda cərimə tətbiq edilməsi nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsinin 231-ci maddəsinə görə («İstehlakçıları aldatma»), malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair istehlakçıların aldadılması inzibati xəta hesab edilir. Bu cür inzibati xətanı törədən fiziki şəxslərə 600 manat, vəzifəli şəxslərə 1000 manat, hüquqi şəxslərə isə 3000 manat miqdarında cərimə sanksiyası tətbiq olunur.

Qanunvericiliyə görə, istehlakçıların mal (iş, xidmət) haqqında məlumat almaq hüququnun pozulmasına, yəni istehlakçıya satılan mal (iş, xidmət) barəsində qanunla müəyyən edilmiş zəruri məlumatların verilməməsinə görə təqsirli vəzifəli şəxslərin 200 manat, hüquqi şəxslərin isə 400 manat miqdarında cərimə olunması nəzərdə tutulur.

«Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunla həmin məcəllənin 200-cü maddəsində cəzalar kifayət qədər sərtləşdirilib. İstehlakçıları aldatma, yəni malsatan və ya əhaliyə xidmət göstərən təşkilatlarda, həmçinin ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyəti və ya keyfiyyətinə dair istehlakçıları xeyli miqdarda (40 manatdan 500 manatadək) aldatma 3000 manatdan 5000 manatadək miqdarda cərimə və ya 180 saatdan 240 saatadək ictimai işlərlə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə və külli miqdarda (500 manatdan yuxarı) ziyan vurmaqla törədildikdə 5000 manatdan 7000 manatadək cərimə və ya üç ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 200.4-cü maddəsinə əsasən, eyni əməllər ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda, təqsirli şəxslərə 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq edilir.

**Rəşad SADIQOV**

# Mənzil sektorunun canlanmasına ümid var

## *«Azərbaycan İpoteka Fondu» ASC-nin yaradılması buna əsas verir*

Əhalinin mənzilə olan tələbatının ödənilməsi və məişət şəraitinin yaxşılaşdırılması dövlətin sosial-iqtisadi siyasətində mühüm yerlərdən birini tutur. Son illər bu istiqamətdə bir sıra tədbirlərin həyata keçirilməsi nəticəsində mənzilə ehtiyacı olan əhali qruplarının ipoteka kreditləri əldə etmək imkanı artmış, 17 mindən artıq ailəyə 700 milyon manata yaxın ipoteka krediti, o cümlədən dövlət büdcəsindən ayrılan vəsait hesabına 5 minə yaxın ailəyə 190 milyon manat güzəştli ipoteka krediti verilmişdir. Bütün bunlara baxmayaraq, xüsusilə də gənc və aztəminatlı ailələrin mənzilə və yaşayış evlərinə artan tələbatı hələ də tam ödənilmir. Həmin tələbatın ödənilməsi üçün bu kateqoriyadan olan insanların əlverişli maliyyələşdirmə vasitələrinə, o cümlədən ipoteka kreditlərinə çıxış imkanları asanlaşdırılmalı, ipoteka kreditləşməsi sistemi təkmilləşdirilməlidir.

Mərkəzi Bankın nəzdində Azərbaycan İpoteka Fondunun yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus «Azərbaycan İpoteka Fondu» ASC-nin yaradılması barədə bu günlərdə ölkə başçısının imzaladığı fərman sosial qayğıya ehtiyacı olan əhali qruplarının mənzil təminatının yaxşılaşdırılması ilə bağlı işləri sürətləndirmək, bu sahədə şəffaflığı təmin etmək məqsədi daşıyır. Sənəddə qeyd edilir ki, ASC ölkə əhalisinin uzunmüddətli ipoteka kreditləşməsi vasitəsilə yaşayış sahəsi ilə təmin edilməsi mexanizminin yaradılmasına, ipoteka kreditləşməsinə yerli və xarici maliyyə resurslarının cəlb olunmasına kömək göstərilməsi ilə bağlı işləri yerinə yetirəcək. ASC-nin ipoteka kreditləşməsinə cəlb etdiyi vəsait, yaşayış sahəsinin 1 kvadratmetri üçün hesablanan qiyməti ipoteka kreditinin verilmə tarixinə ölkənin şəhər və rayon ərazilərinin müvafiq zonalarında orta bazar qiymətindən artıq olmayan, təmir edilmiş, Şəhərsalma və tikinti Məcəlləsinə uyğun istismarına icazə verilmiş çoxmənzilli binalardakı mənzillərin və məlumatlandırma icraatı qaydasında inşa edilmiş, tikintisinin başa çatması barədə məlumat verilmiş yaşayış evlərinin alınmasına yönəldiləcək.

«MBA Group» konsaltinq və qiymətləndirmə şirkətinin baş direktoru Nüsrət İbrahimovun sözlərinə görə, bu sənəd mənzil bazarında sabitliyin təmin olunmasına gətirib çıxaracaq: «2014-cü ilin sonlarından daşınmaz əmlak bazarında, xüsusən də mənzil bazarında süstlük müşahidə edilir. Ötən müddət ərzində aktivlik iki dəfə, qiymətlər isə 22% azalıb. Səbəblər müxtəlifdir: region ölkələrində müşahidə olunan siyasi və iqtisadi durum, beynəlxalq iqtisadiyyatda baş verən hadisələr, dünya birjalarındakı böhranlı vəziyyət, investisiya axınının azalması, bazarda pul kütləsinin məhdudluğu və s. Bu səbəbdən, iqtisadiyyatın lokomotivlərindən sayılan tikinti sektorunda da vəziyyət ürəkaçan deyil. Satış olmadığından tikinti şirkətləri işlərinin davamlılığını təmin edə bilmirlər. Yaranmış vəziyyətdən yeganə çıxış yolu, təbii ki, bazara dolayı yolla pul kütləsinin axınını təmin etməkdir. Bunlardan biri də ipoteka krediti portfelinin artırılması və onun insanlar üçün əlçatan olmasının təmin edilməsidir. Prezidentin fərmanı bütün bu tələbləri öz müddəalarında əks etdirib. Güman edirəm ki, ilin sonuna qədər fərmanda göstərilən bütün tapşırıqlar həllini tapacaq və gələn ilin ortalarından mənzil bazarında sabitlik yaranacaq».

Ekspert diqqəti iki əsas məqamın üzərində cəmləşdirməyi məqsədəuyğun sayır: «Birincisi, mənzil bazarında ipoteka krediti şərtlərinə uyğun təklif portfelinin atımına nail olmaq. Bunun üçün fərmanda müvafiq icra strukturlarına tapşırıqlar verilib. Bu halda, şirkətlər tikintinin həcminin artırılmasında maraqlı olacaqlar və nəticədə təklif artacaq. Təklifin qıtlığı isə qiymətlərin artımına səbəb olur və bu zaman ipoteka kreditləşməsinin mahiyyəti də arzuedilən səviyyədə olmur. İkinci məqam isə budur ki, «Azərbaycan İpoteka Fondu» ASC-nin ipoteka şərtlərini tədricən yumşaltması və bazar indikatorlarının trendini izləməklə şərtlərə, ilk növbədə, faiz dərəcələrinə düzəlişlər etməsi gözlənilir. Xüsusən də güzəştli ipotekanın faiz dərəcəsinin azaldılmasına, bazar sabitləşəndən sonra ilkin ödəniş həcminə, daha sonra isə sabit bazar şəraitində kredit məbləğinin maksimum həcminə düzəliş etmək olar. Bu zaman mərhələlilik prinsipi nəzərə alınmalı və bazar trendi davamlı izlənilməlidir. Arzuladığımız nəticəni yalnız bu halda əldə edə bilərik».

Maliyyə naziri Samir Şərifov ipoteka kreditləri üzrə faizlərin aşağı salınmasını istisna etmir. Onun sözlərinə görə, hazırda bu məsələ araşdırılır və faizlərin əhalinin alıcılıq qabiliyyətinə cavab verməsi üzrə iş aparılır. Həmçinin, ipoteka kreditlərində ilkin ödənişin azaldılması məsələsinə də baxılacaq və münasib variant tətbiq ediləcək. Nazir bildirib ki, ipoteka bazarında baş verən hadisələr daim diqqətdə saxlanılacaq və mənzillərin qiymətinin süni şəkildə artırılmasına imkan verilməyəcək. İpoteka kreditlərinin məbləğinin artırılması istiqamətində də addımların atılması planlaşdırılır. Qeyd olunub ki, hazırda ölkədə tətbiq olunan ipoteka modeli saxlanılmaqla, onun inkişafı istiqamətində tədbirlər davam etdiriləcək.

**A.NƏBİYEVA**

# Sığorta-pensiya sistemində islahatlar davam etdirilir

Dövlət Sosial Müdafiə Fondu və Avropa İttifaqının birgə layihəsi çərçivəsində sığorta-pensiya sistemində əmək pensiyalarının yığım hissəsinin tətbiqi və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti üzrə normativ hüquqi sənəd layihələrinin müzakirəsinə həsr olunmuş tədbir keçirilmişdir. Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev bildirmişdir ki, Azərbaycanda uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olmaq məqsədilə milli pensiya sisteminin inkişafında beynəlxalq tendensiyaların nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruridir. «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası»nın əhəmiyyəti ondadır ki, əlavə pensiya təminatı imkanlarının yaradılması məqsədilə könüllü sosial sığortanın tətbiqi əsas vəzifələrdən biri kimi götürülür. Könüllü sosial sığortalanma əsasında əmək pensiyalarının yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının inkişaf etdirilməsi ilə bağlı nəzərdə tutulan islahatların həyata keçirilməsi mürəkkəb mərhələ olmaqla, ölkədə investisiya mühitindən, maliyyə və qiymətli kağızlar bazarının inkişafından və sığorta-pensiya sistemindən kənar digər amillərdən asılıdır. Bu isə beynəlxalq təcrübə öyrənilməklə konseptual araşdırmaların aparılmasını zəruri edib.

Qeyd edilmişdir ki, bu sahədə qəbul ediləcək qanunvericilikdə könüllü sosial sığorta haqlarının toplanması mexanizmləri, toplanan vəsaitlərin və onların dövriyyəsindən əldə edilən gəlirlərin fərdi uçotunun aparılması, idarəedici şirkətlərdən tələblər, investisiya qaydaları, qeyri-dövlət pensiya fondlarının yaradılması və fəaliyyətinin təşkili, bu institutlarda öhdəliklərin yerinə yetirilməsi üçün adekvat təminat mexanizmlərinin formalaşdırılması və səmərəli idarəetmənin tətbiqi, qeyri-dövlət pensiyalarının təyinatı, ödənilməsi, bu sahədə dövlət tənzimlənməsinin əsas istiqamətləri və digər məsələlər öz əksini tapmalıdır. Bundan əlavə, könüllü sığortalanmanın stimullaşdırılması üçün bir sıra əlavə mexanizmlərin tətbiqi reallaşdırılmalıdır.

Tədbirdə çıxış edən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Malena Mard Dövlət Sosial Müdafiə Fondunun həyata keçirdiyi layihənin Azərbaycanın sığorta-pensiya sahəsində aparılan islahatlara öz töhfəsini verəcəyinə əminliyini bildirmişdir.

**AYTƏN**

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi tutulan əməliyyatın vaxtı

***İyun ayının 1-də rezident hüquqi şəxsə mal təqdim etmişəm. Malın dəyəri iyul ayının 15-də ödənilib, elektron vergi hesab-fakturası isə iyunun 20-də təqdim edilmişdir. Bu halda vergi tutulan əməliyyatın vaxtı hansı tarix hesab edilir?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 159.1-ci maddəsinə görə, malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal vergitutma obyektidir. Vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır (VM, maddə 166.1).

VM-in 166.1.1-ci və 166.1.2-ci maddələrində göstərilən müddətlərdən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat aşağıdakı vaxtlarda aparılmış sayılır:

♦ malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra həyata keçirildikdə isə malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxtda və ya;

♦ malların göndərilməsi onların daşınmasını nəzərdə tutursa, ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxtda, 30 gündən sonra həyata keçirildikdə isə daşınmanın başlandığı vaxtda.

Ödəmə VM-in 166.1.1-ci və ya 166.1.2-ci maddələrində göstərilən müddət başlananadək həyata keçirildikdə ödəmədən sonrakı 5 gün ərzində ƏDV-nin elektron vergi hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat ödəmə həyata keçirildikdə aparılmış sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır (VM, maddə 166.2).

VM-in 176.1-ci maddəsinin tələblərinə əsasən, VM-in 176.4-cü maddəsinin yerinə yetirilməsi şərti ilə, ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və vergi tutulan əməliyyat aparan şəxs malları, işləri və ya xidmətləri qəbul edən şəxsə elektron vergi hesab-fakturası verməyə borcludur. 176.3-cü maddədə isə qeyd edilir ki, vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndərildən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur.

Vergi ödəyicisi vergi orqanına hər hesabat dövrü üçün ƏDV bəyannaməsini verməyə və bunun üçün müəyyən edilən müddətdə hər hesabat dövrü üzrə vergini büdcəyə ödəməyə borcludur. ƏDV bəyannaməsi hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq verilir.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Azərbaycanda işləməyə gələn xarici iş adamlarının arasında bəzən qanunvericiliyin tələblərini pozaraq məsuliyyətə cəlb edilənlər də olur. Əcnəbi sahibkarlar törətdikləri qanunsuzluqların miqyasına və predmetinə görə fərqlənirlər. Türkiyəli iş adamı İnal Şərafəddin də taleyinə Azərbaycan həbsxanaya düşmək yazılanlardandır.

Onun rəhbərlik etdiyi «Beyas Petrol Madencilik İnşaat Turizm Gida Otomotiv Teknolojileri Sanayi ve Ticaret Limited Şirketi»nin əsas fəaliyyəti metal konstruksiyalar və müxtəlif tikinti aksessuarlarının satışı, eləcə də müxtəlif xidmətlərin göstərilməsi idi. Partnyorları arasında Azərbaycan və Türkiyə şirkətlərinin üstünlük təşkil etdiyi müəssisə bazarda öz yerini möhkəmləndirənə qədər mövcud qanunlar çərçivəsində işləmişdi. Amma İnal Şərafəddin bir müddətdən sonra şirkətdə külli miqdarda vergi pozuntuları hallarına yol verməyə başladı: müəssisənin mənfəətini gizlətmək məqsədilə vergi bəyannamələrini saxtalaşdırmaqla dövlət büdcəsinə 60.164,73 manat məbləğində vergiləri ödəməkdən yayındırdı.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin təqdim etdiyi materiallar əsasında İ.Şərafəddinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi açıldı, barəsində axtarış elan olundu və müəyyən müddət keçdikdən sonra hüquq-mühafizə orqanları tərəfindən həbs edildi.

İş üzrə təqsirləndirilən şəxs istintaq mərhələsində dindirilmiş İ.Şərafəddin elan edilmiş ittihamda özünü tam təqsirli bilərək vergilərin büdcədən yayındırılmasında özünün günahkar olduğunu bildirdi. Bundan başqa, şahid ifadələri, ekspert rəyi, mühasibat sənədləri və digər istintaq materialları ilə onun təqsiri tam sübuta yetirildi.

Beləliklə, İnal Şərafəddin Səlahəddin Nəsimi Rayon Məhkəməsinin hökmü ilə 1 il 6 ay müddətində dövlət və yerli özünüidarəetmə orqanlarında vəzifə tutması qadağan olunmaqla, 1 il azadlıqdan məhrum edildi.

**ELBRUS**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- BU İLİN 9 AYI ƏRZİNDƏ İNŞAAT SEKTORUNDA ÇALIŞAN İŞÇİLƏRİN ORTA AYLIQ ƏMƏKHAQQI ƏVVƏLKİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN **6,4%** ARTARAQ **667,4** MANAT TƏŞKİL EDİB.
- ÖTƏN DOQQUZ AY ƏRZİNDƏ İNFORMASİYA VƏ RABİTƏ MÜƏSSİSƏLƏRİ HÜQUQİ VƏ FİZİKİ ŞƏXSLƏRƏ **1216,6 MİLYON** MANATLIQ XİDMƏT GÖSTƏRİB Kİ, ONUN DA **72,7%**-İ ƏHALİ SEKTORUNA AİD OLUB.
- ƏHALİNİN BANKLARDAKI ƏMANƏTLƏRİNİN MİLLİ VALYUTA EKVİVALENTİNDƏ MƏBLƏĞİ ƏVVƏLKİ İLİN 9 AYI İLƏ MÜQAYİSƏDƏ **4,7%** ARTARAQ BU İL SENTYABRIN 1-NƏ **7,3 MİLYARD** MANAT TƏŞKİL EDİB.
- TARİF ŞURASI MALIN MƏNŞƏ ÖLKƏSİNİN MÜƏYYƏN EDİLMƏSİ ÜZRƏ EKSPERTİZA XİDMƏTLƏRİNİN TARİFLƏRİNİ **30%** AŞAĞI SALIB.
- AZƏRBAYCAN İPOTEKA FONDUNUN VƏSAİTLƏRİ HESABINA VERİLMİŞ İPOTEKA KREDİTLƏRİ ÜZRƏ MƏBLƏĞ **712 MİLYON 835 MİN 720** MANATDAN ÇOX TƏŞKİL EDİB.

# Azərbaycan «Doing Business 2016» hesabatında 17 pillə irəliləyib

Dünya Bankı (DB) beynəlxalq iqtisadiyyatın müxtəlif sahələri və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən «Doing Business 2016» hesabatını açıqlayıb. 189 ölkənin yer aldığı sənəddə Azərbaycanın mövqeyi əvvəlki hesabatla müqayisədə 17 pillə irəliləyərək 80-ci pillədən 63-cü pilləyə yüksəlib. Ümumiyyətlə, hesabatda respublikamızın mövqeyi əksər göstəricilər üzrə yaxşılaşıb. Azərbaycan «Biznesə başlama» göstəricisi üzrə 7-ci, «Əmlakın qeydiyyatı» göstəricisi üzrə 22-ci, «Vergilərin ödənişi» göstəricisi üzrə 34-cü, «Kiçik investorların maraqlarının qorunması» göstəricisi üzrə 36-cı, «Müqavilələrin icrasının təmin edilməsi» göstəricisi üzrə 40-cı yerdə qərarlaşıb. «Biznesə başlama» göstəricisi üzrə mövqeyini son bir ildə 5 pillə yaxşılaşdıran respublikamız ilk onluğa düzən ölkələr sırasındadır. Bundan başqa, Azərbaycan «Xarici ticarətin aparılması» göstəricisi üzrə 72, «Elektrik təchizatı şəbəkələrinə qoşulma» göstəricisi üzrə 49, «Tikinti üçün icazələrin alınması» göstəricisi üzrə 36, «Kiçik investorların maraqlarının qorunması» göstəricisi üzrə 15 pillə irəliləyib.

Hesabatda qeyd olunur ki, Azərbaycan dünyada üç və daha çox istiqamət üzrə islahat aparan 24 ölkədən biridir. Respublikamız bir sıra sahələr üzrə MDB-nin əksər ölkələrini qabaqlayır. İqtisadiyyat və Sənaye Nazirliyindən verilən şərhə görə, hesabatda ölkəmizin mövqeyinin yüksəlməsinin əsas səbəbləri bunlardır:

♦ sahibkarlıq subyektlərinin elektron qeydiyyatı;

♦ xarici ticarət əməliyyatlarının aparılması;

♦ daşınmaz əmlakla bağlı qeydiyyatın notariuslar və əmlakın reyestri informasiya bazasının onlayn rejimində inteqrasiyası;

♦ digər sahələrdə qeydiyyat sisteminin elektronlaşdırılması;

♦ tikintiyə icazələrin verilməsi, korporativ idarəetmənin təkmilləşdirilməsi;

♦ investorların maraqlarının qorunması və müflisləşmə üzrə qanunvericiliyə edilmiş müvafiq dəyişikliklər.

Bundan başqa, Şəhərsalma və tikinti Məcəlləsinin qəbul edilməsi, tikintiyə icazələrin alınması sahəsində «bir pəncərə» prinsipinin tətbiqi, aidiyyəti şəxslərlə əqdlər bağlanılarkən prosedurların təkmilləşdirilməsi də Azərbaycanın iqtisadi mövqeyinin yaxşılaşmasına səbəb olan amillərdəndir.

Hesabatın ən mühüm elementlərindən biri olan «Etalon qanunvericiliyə yaxınlıq»göstəricisi üzrə ölkəmiz 67,8 balla qiymətləndirilib (əvvəlki hesabatda 64.08), bu da qeydiyyat prosedurlarının vaxt və xərc tutumu maddələrinin daha da azalacağını şərtləndirir. «Biznesə başlama» və «Vergilərin ödənişi» üzrə indekslərə birbaşa təsir edən bu göstərici üzrə Azərbaycanın irəliləyişlər əldə etməsi dövlət başçısının rəhbərliyi ilə ölkədə sahibkarlıq mühitinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş islahatların daha bir təsdiqi hesab olunur.

İqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov bildirib ki, hazırda biznes mühitinin daha da yaxşılaşdırılması, investorların hüquqlarının qorunması, xarici sərmayənin cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət başçısının imzaladığı müvafiq fərmanlara əsasən, sahibkarlıq sahəsində yoxlamaların sayının azaldılması və lisenziya sisteminin təkmilləşdirilməsinə dair davam etdirilən islahatlar azad biznesin inkişafında mühüm rol oynayacaq.

**Elbrus CƏFƏRLİ**

«Doing Business» hesabatlarında ölkəmizin illər üzrə mövqeyi




«Doing Business 2016» hesabatında biznes mühitinin qiymətləndirilməsi üçün 10 indikatordan istifadə olunur - «Biznesə başlama», «Tikinti icazələrinin alınması», «Əmlakın qeydiyyatı», «Kreditlərin alınması», «İnvestorların maraqlarının qorunması», «Vergilərin ödənişi», «Müqavilələrin icrası», «Xarici ticarətin aparılması», «Elektrik təchizatı şəbəkələrinə qoşulma» «Müflisləşmə prosedurları»

# Daşınmaz əmlakla bağlı beynəlxalq tədbir

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) «BMT-nin AİK regionu üzrə daşınmaz əmlak-torpaq idarəçiliyində sahəvi reyestrlərin rolu» mövzusunda beynəlxalq tədbir keçirmişdir. BMT Avropa İqtisadi Komissiyasının (AİK) Daşınmaz Əmlak İdarəçiliyi üzrə Hökumətlərarası İşçi Qrupu və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə birgə əməkdaşlığı çərçivəsində reallaşdırılmış tədbirdə AİK-ə üzv olan dünyanın 56 dövlətinin nümayəndələri, eləcə də beynəlxalq təşkilatların, elm və təhsil müəssisələrinin, özəl sektorun təmsilçiləri iştirak etmişlər.

ƏMDK-nın sədri Kərəm Həsənov qeyd etmişdir ki, ölkə iqtisadiyyatında müşahidə olunan tendensiyalar daşınmaz əmlak idarəçiliyi sahəsində yeni yanaşmaların irəli sürülməsini labüd edib. Həmin yanaşmalar özündə informasiya və kommunikasiya texnologiyalarının, qabaqcıl idarəetmə mexanizmlərinin, beynəlxalq təcrübənin, müasir normativ-hüquqi bazanın və sadələşdirilmiş prosedurların tətbiqini əks etdirir. Şəffaflıq və operativlik məqsədilə daşınmaz əmlakın qeydiyyatında və torpaq idarəçiliyində «bir pəncərə» sistemi tətbiq olunur və bu, vətəndaş məmnunluğuna nail olunması, şəffaflığın artırılması, idarəetmədə mövcud qüsurların aradan qaldırılması, eyni zamanada məmur-vətəndaş ünsiyyətinin minimuma endirilməsinə şərait yaradır. Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılmasından söz açan komitə sədri artıq bu istiqamətdə işlərə başlanıldığını, Bakı kadastr layihəsinin yekunlaşması ilə Azərbaycanda ilk dəfə olaraq paytaxtın mükəmməl elektron kadastr məlumat bazasının yaradıldığını qeyd etmişdir. O, son illər ərzində dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi və icarəsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı və ünvan reyestri sahələrində əldə olunan nailiyyətlərdən danışmış, daşınmaz əmlak, o cümlədən torpaq idarəçiliyi infrastrukturunun inkişaf etdirilməsi yolunda atılan addımların beynəlxalq aləmdə də yüksək qiymətləndirildiyini bildirmişdir.

Tədbirdə iştirak edən Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadə respublikanın iqtisadi inkişaf tempinə görə dünyada öndə gedən dövlətlər sırasında olmasından, ölkəmizin sosial-iqtisadi inkişafından söz açaraq bildirmişdir ki, daşınmaz əmlak idarəçiliyi sahəsində əldə olunan uğurlar ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verməkdədir. Bu istiqamətdə həyata keçirilən beynəlxalq əməkdaşlıq daşınmaz əmlak idarəçiliyinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır.

Tədbir «Məkan və inzibati məlumatların səmərəli idarə edilməsi, müştəriyönümlü və dolğun daşınmaz əmlak kadastrı və reyestrinin aparılması üzrə qabaqcıl təcrübə», «Çoxfunksiyalı məlumat infrastrukturunda daşınmaz əmlak idarəçiliyi ilə digər sahəvi reyestrlərin qarşılıqlı təması», «Ünvan və tikililər üzrə sahəvi reyestrlərin inkişaf etdirilməsinin yeni istiqamətləri», «Sahilboyu məkan planlaşdırması və su kadastrı», «Uğurlu daşınmaz əmlak idarəçiliyi üçün nə tələb olunur?» mövzularının müzakirələri ilə öz işini davam etdirmişdir.

**A.NƏBİYEVA**

# Enerji xəritəsi yaradılacaq

**Bakıda Almaniya Federal İqtisadiyyat və Energetika Nazirliyinin təşəbbüsü ilə Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK) «Renewables Academy» (RENAC) AG ilə birgə «Külək enerjisi və şəbəkəyə inteqrasiya» mövzusunda konfrans keçirilmişdir.**

AHK-nın idarə heyətinin üzvü, icraçı direktoru Florian Şröder Azərbaycan ilə Almaniya arasındakı əməkdaşlığın, eləcə də hər iki ölkə mütəxəssislərinin alternativ enerji mənbələri üzrə təcrübə mübadiləsinin gələcəkdə bu sahənin inkişafına böyük töhfə verəcəyinə ümidvar olduğunu demişdir. Qeyd etmişdir ki, Azərbaycan bərpa olunan enerji mənbələri üzrə böyük potensiala malik ölkələrdəndir.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədr müavini Cəmil Məlikov çıxışında qeyd etmişdir ki, ölkəmizdə bərpa olunan enerji çoxşaxəlidir və intensiv şəkildə inkişaf edir: «Təbii ki, bu sahənin inkişafında stimullaşdırıcı tədbirlərin də böyük rolu var. Nazirlər Kabinetinin qərarı ilə ölkəyə idxal olunan alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların gömrük rüsumlarından və ƏDV-dən azad edilməsi bu sahənin inkişafına böyük təkan verən qərarlardan olub».

Qobustanda fəaliyyət göstərən hibrid tipli elektrik stansiyasından söz açan sədr müavini bildirmişdir ki, stansiyada 2.7 MVt gücündə külək turbinləri, 1.8 MVt gücündə günəş elekrik stansiyası və 1 MVt gücündə bioqazla işləyən qaz generatoru həsabına Qobustanın enerji təminatı tam həyata keçirilir və bu, ölkədə yeganə ərazidir ki, öz enerji təchizatını bərpa olunan enerji mənbələri hesabına təmin edir.

Qeyd edilmişdir ki, bu sahədə əsas məsələlərdən biri bərpa olunan enerji potensiallarının müəyyənləşdirilməsidir. Respublikanın az və yüksək külək potensialı olan regionlarında 21 ölçü-müşahidə stansiyası quraşdırılmışdır ki, bu da ölkənin real enerji potensialını müəyyən etməyə, enerji xəritəsinin yaradılmasına öz töhfəsini verəcək: «Bu bizə imkan verəcək ki, külək parklarının salınmasında, külək texnologiyalarının istifadəsində daha dəqiq ilkin məlumatlardan istifadə edək, yer seçimini asan və tez həyata keçirə bilək».

Problemlərdən də söz açan C.Məlikov demişdir ki, ölkəmizdə alternativ enerji mənbələrindən istifadə məqsədilə ayrılmış torpaq sahələri məhduddur. Bu səbəbdən də sahənin inkişaf etdirilməsi üçün işlərin dəniz istiqamətində davam etdirilməsi qərara alınıb: «Ölkəmizin dəniz akvatoriyasında, Abşeron rayonunun şimal istiqamətində böyük potensialımız var və bundan istifadə etməklə 1000 MVt-lik külək parklarının yaradılmasına nail ola bilərik. Dövlət Agentliyi Pirallahı və Çilov adaları arasında həyata keçirilən 200 MVt-lik layihəni hökumətə təqdim edib. Bu iki adanın arasında kifayət qədər kiçik adalar, sualtı daşlar mövcuddur, suyun dərinliyi 2-5 metr arasında dəyişdiyindən, burada gəmilərin, qayıqların istifadəsi qeyri-mümkündür. Ona görə də bu ərazidə estakada üzərində yol salıb avadanlıqlar quraşdıraraq, layihəni həyata keçirmək niyyətindəyik».

Almaniyanın Azərbaycandakı səfirliyinin iqtisadiyyat departamentinin rəhbəri Eugen Şönfeld qeyd etmişdir ki, bərpa olunan enerji mənbələri Azərbaycanda olduğu kimi, Almaniya üçün də böyük əhəmiyyət kəsb edir: «Azərbaycan bu sahədə mühüm partnyorumuzdur. Digər sahələrdə olduğu kimi, alternativ enerji sahəsi üzrə də əməkdaşlığımızı genişləndirmək niyyətindəyik».

**AYTƏN**

# Sahibkarların maraqları müdafiə olunur

Oktyabrın 19-da Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib və parlament tərəfindən qəbul edilib. Qanun layihəsinə əsasən, 2015-ci il noyabrın 1-dən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır. Ölkə Prezidentinin fərmanı ilə sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyalar İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində veriləcək.

İqtisadçı ekspert Pərviz Heydərov bu qanun layihəsinin vergiqoyma sahəsinə, vergilərin ümumi həcminin artmasına təsiri ilə bağlı suallarımızı cavablandıraraq bildirdi ki, indiyədək ölkəmizdə bu istiqamətdə müəyyən addımlar atılmış, tapşırıqlar verilmiş, müvafiq sənədlər imzalanmışdı: «Prezident tərəfindən növbəti addımın atılması ölkədə sahibkarlıq fəaliyyətinə əlavə «nəfəs» verəcək. Bu isə öz nəticəsini dövlət büdcəsinə vergi daxilolmalarında göstərməlidir. Əsas hədəf ondan ibarətdir ki, sahibkarlar öz fəaliyyətlərini sağlam əsasda qursunlar və əldə etdikləri gəlirlərə uyğun vergilərini ödəsinlər. Yəni başlıca hədəf sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanların rifahının yüksəldilməsi olmaqla yanaşı, həm də dövlət büdcəsinə vergi daxilolmalarını artırmaqdır».

P.Heydərov vurğulayıb ki, qeyri-neft sektorunun inkişaf etdirilməsinin zəruriliyinin hökumətin iqtisadi siyasətində prioritet təşkil etməsi hələ neftin qiyməti düşməmişdən əvvəl özünü göstərirdi. Qeyri-neft sektorunun inkişafı isə bilavasitə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsindən keçir: «Yəni büdcə gəlirlərinin əsasını əslində bu sahədən gələn gəlirlər təşkil etməlidir. Sahibkarlıq fəaliyyətinə rəsmi orqanların müdaxiləsi və qanunsuz yoxlamalar isə məhz orta və kiçik sahibkarlığın inkişafının qarşısını alır. Əsas zərbə orta və kiçik sahibkarlığa dəyir, onlar qanunsuz yoxlamalara və müdaxilələrə tab gətirmir. Ona görə də bu qanunvericilik təşəbbüsü ilk növbədə kiçik və orta sahibkarlığın daha sürətlə inkişaf etməsi ilə nəticələnəcək, əlavə stimul rolu oynayacaq. Bu, indiki şəraitdə olduqca vacibdir».

Lisenziyaların «ASAN xidmət» tərəfindən verilməsi ilə bağlı P.Heydərov qeyd edib ki, Azərbaycanda, ümumiyyətlə, lisenziyalaşdırma siyasətinin mahiyyəti, məğzi, onun funksionallığı əsaslı dəqiqləşdirmə tələb edir: «Lisenziyaların sayı son dərəcə çoxdur. İnkişaf etmiş ölkələrdə lisenziya əsasən insanların sağlamlığı, təhlükə xarakteri daşıyan fəaliyyət növləri üçün verilir, amma bizdə, demək olar ki, bütün fəaliyyət növlərinə aid edilir. Hətta icazə xarakterli tələb olunan şərtlər üzrə də bizdə lisenziyalaşdırılma həyata keçirilir. Bütün bunları nizamlamaq, lisenziyaların sayının azaldılması mühüm şərt olmaqla yanaşı, bunun «ASAN xidmət»ə verilməsi Prezident tərəfindən irəli sürülmüş inqilabi bir təşəbbüsdür. Bununla vətəndaşların vaxt itkisinin, əlavə xərclərin azaldılması, etik qaydalara və nəzakətli davranışa əməl edilməsi, peşəkarlıq səviyyəsinin artırılması mümkün olacaq. Bu, dövlət strukturlarına etimadın gücləndirilməsinə, şəffaflığın artırılmasına, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə də şərait yaradacaq».

**F.İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Energetika Nazirliyi sahibkarlıq subyektlərində yoxlamaları dayandırıb.

Nazirlər Kabinetinin qərarına əsasən, kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların lizinq yolu ilə verilməsi qaydaları asanlaşdırılıb.

Bakıda gənclər üçün Biznes İnkubasiya Mərkəzi istifadəyə verilib.

Bakı-Tbilisi-Qars dəmir yolu gələn il hazır olacaq.

Azərbaycan və Kosta-Rika elektron ticarət sahəsində əməkdaşlıq edəcək.

Belçika şirkətləri İmişlidə «Günəş batareyaları» zavodu tikməyi planlaşdırır.

Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində layihələri maliyyələşdirəcək.

Hökumət turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə yeni layihələr hazırlayacaq.

Belarus şirkətləri Azərbaycanın turizm sektorunda bir sıra layihələr həyata keçirməyi planlaşdırır.

# OECD nümayəndələrinin Bakıya səfəri gözlənilir

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Qlobal Forumunun Qiymətləndirmə Qrupunun Paris şəhərində keçirilmiş 21-ci iclasında 30 ölkəni təmsil edən nümayəndələrin iştirakı ilə Azərbaycanın hesabatı müzakirə olunmuş və müsbət rəy almışdır.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin rəisi Fərəh Məmmədova, Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin idarə rəisi Telman Hüseyinli və şöbə rəisi Vüsal Şıxəliyev, İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin şöbə rəisi Nigar Alimova, Beynəlxalq münasibətlər idarəsinin şöbə rəisi Ülvi Yusifov təmsil etmişlər.

Forumun qiymətləndirmə prosesinin ikinci mərhələsində qanunvericiliyin praktikada tətbiqi məsələləri nəzərdən keçiriləcək. Bu məqsədlə OECD Qlobal Forumunun qiymətləndirmə qrupu nümayəndələrinin 2016-cı ilin yanvar ayında Bakıya səfəri gözlənilir.

# «ASAN xidmət» – vətəndaş məmnunluğunun ünvanı

*«ASAN xidmət» mərkəzləri dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiqi, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin - «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasında böyük rol oynayır.*
*Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı xidmətlər üstünlük təşkil edir. Əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirildiyi halda, indi 10 dövlət orqanı tərəfindən 30 növ xidmət göstərilir. Bundan əlavə, mərkəzlərdə 30 növ funksional yardımçı xidmətlər təşkil edilib.*

*Heydər Əliyev prospektində yerləşən Bakı şəhər 5 saylı «ASAN xidmət» mərkəzi iyul ayının 14-də istifadəyə verilib. Bu mərkəz paytaxtda qeydiyyatda olan sakinlərə xidmət göstərir.*

***Səhər...***

Girişdə insanların təhlükəsizliyini təmin etmək məqsədilə ən müasir keçid aparatları quraşdırılıb. Mühafizə xidmətinin rəhbəri İmran Cəbrayılov və gecə növbəsinin polis mühafizəçisi Mahir Yədayi bizi gülərüzlə qarşılayır.

İnformasiya texnologiyaları üzrə mütəxəssis Niyaməddin Mustafayev səhər tezdən iş başındadır: o, mərkəzdəki bütün texnologiyaların işlək vəziyyətdə olmasına cavabdehdir.

Hüquqi təminat şöbəsinin müdiri Orxan Məhərrəmov nəzarətçilərlə ümumi iclas keçirərək, onlara gün ərzində görüləcək işlərlə bağlı tapşırıqlarını verir. Şöbənin baş məsləhətçisi Pərvanə Əlizadə narazı vətəndaşlarla münaqişəli hallar kabinəsini idarə etdiyini bildirir: «Mərkəz yeni olduğu üçün hələlik gün ərzində 600-700 müraciət daxil olur. Pilot layihələr - tibbi arayışların verilməsi, yaşayış yerindən arayışların alınması və digər sənəd prosedurları ilə bağlı hər hansı xırda mübahisəli vəziyyət yarandıqda çox sakit vəziyyətdə, təmkinlə vətəndaşları razı salmağa çalışıram. Noyabr ayının 1-dən nəqliyyat vasitələrinin lisenziyalaşdırılması da bizim səlahiyyətimizə verilir. Çalışırıq ki, insanlar bizdən narazı getməsinlər».

Binaya daxil olan vətəndaşlar öncə məlumat mərkəzinə yaxınlaşaraq onları maraqlandıran suallara cavab almağa çalışırlar. Sevinc Əliyeva, Rəhilə Həsənova, Eltən Rəsulova sənədlərin düzgünlüyünün yoxlanılması, dəqiqləşdirilməsi ilə məşğuldurlar. Natalya Stepanova adlı vətəndaş su borcunun ödənilməsi ilə bağlı müraciət əsasında hansı sənədlərin tələb olunması ilə maraqlanır...

Bunlar ilk müşahidələrimizdir. Mərkəzlə ümumi tanışlıq üçün bizi nəzarətçi funksiyasını həyata keçirən Nicat Ələsgərov müşayiət edir.

***Xidmətlər***

Digər mərkəzlərdə olduğu kimi, burada da internetə açıq olan kompüterlər qoyulub və vətəndaşların hər növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılıb. Vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Xidmət sistemi müasir İP telefon və şəbəkə ilə təmin edilib.

***Personal***

Şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi pəncərəsində müraciətləri Kifayət Səmədova, Təranə Bəylərli və Nicat Hüseynov cavablandırır. Hər gün 100-dən çox müraciət qəbul edən əməkdaşlar sənədlərin 3 gündən 10 günədək müddətdə hazırlanaraq vətəndaşlara təqdim olunduğunu bildirirlər.

Ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi şöbəsinə gündəlik 40-50 nəfər yaxınlaşır. Sürücülük vəsiqəsinin dəyişdirilməsi pəncərəsindən gün ərzində 10-15 vətəndaşa xidmət göstərilir, tələb olunan sənəd 5 dəqiqəyə hazırlanaraq müraciət edənlərə çatdırılır. Gömrük bəyannamələri və gömrük rəsmiləşdirilmələri üçün sənədlərin qəbulu, əmək pensiyalarının təyin edilməsi pəncərələrində iş həmişə hərəkətlidir. Zəruri ödənişlər yerində edilir.

Vergilər Nazirliyinin kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı pəncərəsinə ərkimiz daha artıq çatır. Burada Elvira Hümbətova və Tünzalə Zeynalova gün ərzində 35-40 müraciəti həll edir. Müraciətlərin əksəriyyətinin «ASAN imza» ilə bağlı olduğu bildirilir. Fiziki şəxs Sənan Zeynalov və hüquqi şəxs qismində «Üfüq» İstehsalat Birliyi MMC, «Dalğa» elm-istehsalat müəssisəsi də «ASAN xidmət» mərkəzinə «ASAN imza» ilə bağlı müraciət etmişdilər. Vergilər Nazirliyinin kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı pəncərəsinin əməkdaşları tərəfindən onların problemi qısa vaxt ərzində həll olundu. «Gəmiqaya Nəqliyyat Bakı Mərkəzi» MMC, «İdeya sign» MMC, «Azbestqrup» MMC tərəfindən ilkin qeydiyyatdan keçməklə bağlı müraciət olunmuşdu. Vergilər Nazirliyini təmsil edən əməkdaşlar iki iş günü ərzində ya həmin hüquqi şəxslərə VÖEN açılacağı, ya da rəsmi cavab göndəriləcəyini bildirirlər. Əfqan Hüseynovun problemi «ASAN imza» kodunun kilidlənməsi ilə bağlı idi. Vətəndaşa izah olundu ki, belə hallar borca və ya «ASAN imza»nın uzun müddət istifadə edilmədiyinə görə baş verir. Xatirə Əmrahova adlı vətəndaş dərzi fəaliyyəti ilə bağlı VÖEN açdırmaq üçün qeydiyyatdan keçmək istəyir. Ondan zəruri məlumatlar alınır, anket doldurulur və iki iş günü müddətində müraciətinin həll olunacağı bildirilir...

Vergi əməkdaşları problemli müraciətlərin ən çox hüquqi şəxslərin ləğvi, məlumat dəyişiklikləri ilə bağlı olduğunu bildirirlər. Belə məsələlərdə də vətəndaşlara düzgün istiqamət verilir, onlar məlumatlandırılaraq lazımi orqanlara yönəldilir.




***Əcnəbi qonaq***

İtaliyalı tələbə Noemi Bilotta işlə bağlı «ELSA» Avropa Hüquq Tələbə Assosiasiyası tərəfindən Azərbaycana ezam edilib. O, Roma Universitetində hüquq təhsili alır. Noemi bildirir ki, ilk dəfə Azərbaycanda tanış olduğu «ASAN xidmət» İtaliya vətəndaşı üçün maraqlı bir yenilikdir: «İtaliya və Azərbaycan sistemləri arasında müqayisə aparıram.Güman edirəm ki, bizdə də belə bir sistem qurulmalıdır».

***İnnovasiyaların tətbiqi***

5 saylı «ASAN xidmət» mərkəzinin ikimərtəbəli binasında yüksək standartlar tətbiq olunub. Burada innovasiyanın, texnologiyaların ən son yenilikləri ilə tanış olmaq mümkündür. İlk dəfə bu mərkəzdə «ASAN ECO» oturacaqları quraşdırılıb. Bunların hər biri ASAN loqosu formasında olan günəş panelləri ilə təchiz olunub. Qurğuya yerləşdirilmiş modem vasitəsilə isə internetdən pulsuz yararlanmaq imkanı var.

Mərkəzin birinci mərtəbəsində yeni layihələrə aid edilən növbə terminalı avtomatik olaraq vətəndaşı sıra nömrəsi ilə təmin edir. Rəy sorğusu, yazı masası, uşaq oyun sahəsi, elektron şikayət köşkü, südəmər körpəlilər üçün «ana və uşaq» otağı, özünəxidmət mərkəzi və s. mükəmməl təşkil olunub. Xüsusi guşədə qoyulmuş təklif və şikayət kitabları vasitəsilə vətəndaşlar mərkəz haqqında fikirlərini bildirirlər.

«ASAN sorğu» robotunun fəaliyyəti ilə də tanış oluruq. Bu robot Çağrı Mərkəzinin operatorları ilə canlı bağlantı yaradaraq vətəndaşın sorğu və müraciətinin qəbul olunmasını təmin edir. Robotdan videokonfransların keçirilməsi və videodanışıqların aparılması zamanı da istifadə olunur.

Buradakı printeri innovasiyaların zirvəsi adlandırmaq olar: o, istifadə edilən kağızların üzərindəki yazıları silərək yenidən çap edir. Çap zamanı adi kağızdan istifadə olunur. Ekoloji cəhətdən daha sağlam və qənaətcil olan bu qurğu vasitəsilə bir standart çap kağızından 8 dəfə istifadə etmək mümündür.

Mərkəzdə işçilərin yorğunluğunu götürmək məqsədilə stres otağı, kafe-yeməkxana, çay otaqları, kitabxana da fəaliyyət göstərir, ərazidə 150 yerlik avtomobil dayanacağı yaradılıb və buradakı yerüstü keçid piyadaların təhlükəsiz hərəkətini təmin edir.

***Xoşbəxt olsunlar...***

Birinci mərtəbədə nəzərimizi nikah otağı cəlb edir. Burada talelərini bir-birinə bağlayan insanlar nikah şahidlərinin, ailə üzvlərinin iştirakı ilə dövlət himnimizin sədaları altında ailə həyatına qədəm qoyurlar. Orxan Maqsudov və İlhamə Bəkirli nikaha girdikləri üçün özlərini xoşbəxt sayırlar.

Nikah mərasiminə hazırlıq, sənədlərin qaydaya salınması üçün mərkəzə müraciət edən İlqar İsmayılov və Sevinc Məmmədova da xidmətdən razılıq edirlər. Bizə isə onlara xoşbəxtlik arzulamaq qalır...

**Fəxriyyə İKRAMQIZI**

*«ASAN xidmət» mərkəzlərində insan resursları və təlimlərə xüsusi önəm verilir. Hazırda Dövlət Agentliyində və «ASAN xidmət» mərkəzlərində 1600-ə yaxın əməkdaş çalışır. Bu günədək Dövlət Agentliyi tərəfindən mərkəzlərdə işləyən bütün əməkdaşlara 675 təlim keçilib.*
*Burada çalışan könüllülərlə bağlı da bir sıra mühüm işlər görülüb. Könüllülərə təlim keçən Nərmin Əhmədova onlara ilkin təlim zamanı «ASAN xidmət» mərkəzlərində çalışmaq üçün lazım olan keyfiyyətlər və xidmət qaydaları barədə məlumatlar veridi. Ümumilikdə agentlik və «ASAN xidmət» mərkəzlərində indiyə qədər 4500 nəfərədək şəxs könüllülük fəaliyyətinə cəlb olunub. Hazırda 600-dək könüllü mərkəzlərdə fəaliyyətini davam etdirir.*



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# İctimai birliklərin vergi mükəlləfiyyətlərinin seçilməsi təklifləri

İctimai birliklər tərəfindən 4-cü seçimin edilməsinə (illik mənfəət vergisi və rüblük muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergilər üzrə mükəlləfiyyətin qəbul edilməsi) praktikada çox az hallarda rast gəlmək olur. Bu seçim zamanı ictimai birlik gəlirlərinə nə ƏDV (Vergi Məcəlləsinin 155.1-ci maddəsini nəzərə almaqla), nə də sadələşdirilmiş vergi tətbiq etmir, yalnız mənfəətindən mənfəət vergisi hesablayır.

Qeyd etdiyimiz kimi, yenicə fəaliyyətə başlayan və ya ölkədə uzun müddət fəaliyyət göstərən ictimai birliklərin əksəriyyətinin gəlirləri yalnız qrant (yardım), üzvlük haqları, ianə və digər bu kimi gəlirlərdən ibarətdir, həmçinin böyük əksəriyyəti sahibkarlıq fəaliyyəti ilə məşğul olmur. Göstərilən gəlirlər də Vergi Məcəlləsinə uygun olaraq, mənfəət vergisindən azaddır. Belə halda sual yaranır ki, ictimai birliyin mənfəət vergisinə cəlb edilən gəlirləri çox hallarda mövcud olmursa, nə üçün mənfəət vergisi mükəlləfiyyəti seçilməlidir?

Əvvəlki təhlillərimizdə də qeyd etdik ki, ictimai birlik sadələşdirilmiş vergi və ya mənfəət vergisi üzrə mükəlləfiyyətini yaratmamaqla qanuni olaraq sadələşdirilmiş vergi bəyannaməsini və ya mənfəət vergisi bəyannaməsini, həmçinin həmin bəyannamələrin 1№-li Əlavələrini vergi orqanına təqdim etməmək hüququ qazanır. Beləliklə, vergi orqanlarında belə ictimai birliyin fəaliyyəti barədə, o cümlədən 1№-li Əlavələrdə əks olunmalı əsas vəsaitlər, digər maddi əşyalar, debitor və kreditor borcları, digər aktiv və öhdəliklərindəki dəyişikliklər barədə məlumatsızlıq yaranır. Bu da vergi orqanı ilə vergi ödəyicisi (ictimai birlik) arasında maksimum uyğunsuzluqlarla dolu münasibətlərin yaranmasına yol açır.

Əgər ictimai birlik illik mənfəət vergisi mükəlləfiyyətini seçərsə, nəyi qazandığını və ya nəyi itirmədiyini təhlil edək. Bəzən elə düşünürlər ki, əgər ictimai birlik mənfəət vergisi bəyannaməsi mükəlləfiyyətini seçmişdirsə, deməli, birliyin sahibkarlıq fəaliyyəti vardır. Belə düşünməyə ehtiyac yaranmır, çünki mənfəət vergisi bəyannaməsində ictimai birliklər üzrə vergiyə cəlb edilməyən gəlirlərin əks olunmasını nəzərdə tutan sətirlər (217-ci, 219.4.1-ci və 219.4.2-ci sətirlər) mövcuddur. Əgər ictimai birliyin gəlirləri yalnız mənfəət vergisinin hesablanmasına cəlb olunmayan (və ya vergitutma obyektinə aid edilməyən) gəlirlərdirsə, həmin gəlirlər 217-ci sətirdə mənfəət vergisindən azad edilən gəlirlər kimi, eyni zamanda 219.4.1-ci və 219.4.2-ci sətirlərdə müvafiq gəlir adları altında «ümumi gəlirdən çıxılmalar» kimi əks etdirilir. Beləliklə, bəyannamənin 220-ci «çıxılmalardan sonra ümumi gəlirlər» sətrində sıfır nəticə alındığına görə, vergiyə cəlb olunan mənfəət yaranmır.

Mənfəət vergisi tərtib edən ictimai birliyi narahat edən (əslində, narahatlığa əsas olmayan) bir məsələ ortaya çıxa bilər. Məsələn, gəlirləri yalnız qrant (yardım), üzvlük haqları, ianə və digər bu kimi gəlirlərdən ibarət olan ictimai birlik bu gəlirləri bəyannamənin 217-ci, 219.4.1-ci və 219.4.2-ci sətirlərində əks etdirməklə bərabər, əməkhaqqı, sosial sığorta haqqı, amortizasiya və qeyri-kommersiya istiqamətində çəkdiyi digər xərcləri bəyannamənin xərclər hissəsindəki sətirlərdə (məsələn, 221.1 - 221.15-ci, 227-ci, 228-ci, 229-cu və digər sətirlərdə) əks etdirməlidirmi? Əlbətdə ki, xeyr. Çünki bu sətirlərdə sahibkarlıq fəaliyyəti istiqamətində malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə xərclər əks etdirilir. Yuxarıda göstərilən gəlirləri olan ictimai birliklər tərəfindən bu sətirlərin doldurulması lazım deyil. Ümumiyyətlə, belə gəlirləri olan ictimai birlik bəyannamənin xərclər hissəsini boş saxlamalıdır. Xərclər barədə informasiyaları vergi orqanı dolayısı ilə başqa mənbələrdən əldə edir. Məsələn, mənfəət vergisi bəyannaməsi təqdim edən ictimai birlik rüblük muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergi bəyannaməsi təqdim etdiyinə görə əməkhaqqı, bu cür digər muzdlu işlə əlaqədar gəlirlər və bu gəlirlərdən tutulan gəlir vergiləri barədə məlumatları vergi orqanına ötürmüş olur. Həmçinin, mənfəət vergisi bəyannaməsinin 1№-li Əlavəsindən də bir çox xərclər barədə məlumatları (amortizasiya, ləğv olunan əsas vəsaitlər, ehtiyatların silinməsi və sair) əldə etmək mümkündür. Digər xərclər barədə məlumatların isə dəqiqliklə vergi orqanına verilməsinə ehtiyac yoxdur.

Mənfəət vergisi bəyannaməsini təqdim etməyin üstünlüklərindən biri də odur ki, ictimai birlik təsadüfən sahibkarlıq istiqamətində hər hansı alqı-satqı (xidmət göstərilməsi, iş görülməsi) əməliyyatı apardığı və ya qeyri-kommersiya fəaliyyəti ilə paralel uzunmüddətli sahibkarlıq fəaliyyəti göstərdiyi zaman rahatlıqla mənfəət vergisinin bəyannaməsində sahibkarlıq fəaliyyəti üzrə gəlirlərini və xərclərini müvafiq sətirlərdə əks etdirə, mənfəətini və mənfəət vergisini hesablaya bilər.

Daha bir üstünlük: fərz edək ki, hər hansı tədbirin həyata keçirilməsinin maliyyələşdirilməsi üçün kommersiya təşkilatı tərəfindən ictimai birliyə maliyyə yardımı edilir və həmin yardım (pul) tam və düzgün olaraq büdcədə nəzərdə tutulan istiqamətlərdə birlik tərəfindən istifadə olunur. Belə gəlirlərin satışdankənar gəlirlər kimi və ya sponsorluq çərçivəsində «yardım verənin» loqosunu (və ya əmtəə nişanını) təbliğ etmək və ya hər hansı tələbini yerinə yetirmək tapşırığının alınması aşkar olunduğu halda, ictimai birlik tərəfindən «sponsora» xidmətlərin göstərilməsi kimi nəzərə alınması ictimai birliyə vergi öhdəliyi yaradır. Belə halda, ictimai birlik sadələşdirilmiş vergi ödəyisidirsə, Vergi Məcəlləsinin 219.1-ci maddəsinə uyğun olaraq, əldə etdiyi «yardım» birbaşa sadələşdirilmiş vergiyə cəlb olunacaqdır. Əgər ictimai birlik mənfəət vergisinin ödəyicisidirsə, birlik tərəfindən çəkilən bütün xərclərin həcmi büdcə üzrə əldə edilən gəlirin (alınan yardımın) həcminə bərabər olduğuna görə, hər hansı mənfəət və mənfəət vergisi yaranmayacaqdır.

Beləliklə, ictimai birliklərin faktiki gəlir mənbələrinin və fəaliyyətlərinin predmetləri barədə təhlillər onu deməyə əsas verir ki, onların illik mənfəət vergisi və rüblük muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergilər üzrə mükəlləfiyyətlərini (Vergi Məcəlləsinin 155.1-ci maddəsini nəzərə almaqla) seçməsi həmin birliklərin vergilərlə bağlı siyasətinə dah çox uğur gətirir.

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bu dəfə yeni hesablar planında 201 saylı «Xammal və materiallar» hesabı üzrə materialların xidmətlərin göstərilməsi zamanı xidmət göstərən tərəfindən xərclərə silinməsi (buraxılması) ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

Xidmətlərin göstərilməsi zamanı materialların silinməsi (istifadə edilməsi) üzrə əməliyyatların mühasibat uçotunda əks etdirilməsi üçün yeni hesablar planında bir neçə formada ikili yazılışlar vermək mümkündür. Müxtəlif formalarda ikili yazılışların verilməsindən asılı olmayaraq, materialların «xərc» kimi tanındığı vaxtda silinməsinə diqqət yetirilməlidir. Hesablar planında xidmətlə bağlı ayrıca olaraq xərc hesabı nəzərdə tutulmayıb. Yəni 202№-li «istehsalat məsrəfləri» adı kimi hər hansı, məsələn, «xidmət göstərilməsi üzrə məsrəflər» adı və ya başqa buna oxşar hesab göstərilməyib. Lakin xidmət göstərilməsi ilə məşğul olan təsərrüfat subyektləri tərəfindən 202№-li «istehsalat məsrəfləri» hesabından istifadə etməklə xidmət göstərilməsi zamanı çəkilən cari məsrəfləri xidmətlər təhvil veriləndək əks etdirmək olar.

Bəzən sual yaranır ki, xidmətlə bağlı xərclərin 202№-li «istehsalat məsrəfləri» hesabında uçota alınmasına ehtiyac varmı və ya bu hesabda uçota almadan da birbaşa satışın (xidmətin) maya dəyəri hesabına silmək olarmı? Əgər göstərilən xidmətlər cari hesabat dövründə başa çatdırılmamışdırsa (yəni növbəti hesabat dövründə başa çatdırılması nəzərdə tutulmuşdursa), davam edən xidmətlərlə bağlı cari hesabat dövründə çəkilmiş xərcləri 202№-li «istehsalat məsrəfləri» hesabında başa çatdırılmamış (təhvil verilməmiş) xidmətlərlə bağlı məsrəflər kimi uçota almaq olar. Lakin xidmətlərin göstərilməsi prosesinin adətən qısamüddətli (az vaxt tələb edən), həmçinin xidmətlərin tərkibində material məsrəflərinin həcminin çox az olduğuna görə xidmətlə bağlı bütün xərclər birbaşa 701№-li «Satışın maya dəyəri» hesabında da uçota alına bilər.

***Misal:*** Paltaryuyan maşınların təmiri ilə məşğul olan müəssisə 23.01.2015-ci il tarixdə ƏDV ilə birlikdə 3540 (əsas hissə 3000 manat + ƏDV 540 manat) manat dəyərində (nağdsız qaydada VHF əldə etməklə) materiallar (paltaryuyan maşınlar üçün ehtiyat hissələr) almışdır. Müəssisə (icraçı) tərəfindən qəbul edilmiş sifariş üzrə 28.01.2015-ci il tarixdə sifarişçinin əşyasına baxış keçirilmiş və müəyyən olunmuşdur ki, paltaryuyan maşının suqızdırıcısı xarab olduğuna görə dəyişdirilməlidir. Ehtiyat hissənin (suqızdırıcının) sifarişçi üçün tətbiq olunan qiyməti 80,00 manat (ehtiyat hissənin alış qiyməti 65,00 manatdır), ehtiyat hissənin paltaryuyan maşına quraşdırılması ilə bağlı göstərilən xidmətin dəyəri isə 50,00 manat, cəmi ƏDV-siz 130,00 (80,00 + 50,00) manat xidmət haqqı razılaşdırılmışdır. Həmin tarixdə müəssisənin anbarından 1 ədəd suqızdırıcısı müəssisənin (icraçının) xidməti icra edən məsul işçisinə təhvil verilmiş və 03.02.2015-ci il tarixdə icraçı tərəfindən xidmət göstərilərək başa çatdırılmışdır. Eyni tarixdə də xidmətlərin göstərilməsi ilə bağlı xidmətin adı, istifadə olunan ehtiyat hissələrin adı və digər zəruri göstəricilər əks etdirilməklə təhvil-təslim aktı tərtib olunmuş və tərəflərin imzaları ilə təsdiq edilmişdir. Bu əməliyyatlarla bağlı veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 23.01.2015 | 201, Xammal və materiallar | Materiallar alınmışdır (malsatandan tam təhvil alınmışdır) (ƏDV-siz məbləğ) | 3000 | |
| 23.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materiallar alınmışdır (malsatandan tam təhvil alınmışdır) (ƏDV-siz məbləğ) | | 3000 |
| 23.01.2015 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | 540 | |
| 23.01.2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | | 540 |
| 28.01.2015 | 202, İstehsal məsrəfləri | Materiallar (ehtiyat hissə) xidmətin göstərilməsi üçün daxili qaimə tərtib edilməklə anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) xidməti icra edən maddi-məsul şəxsə (məsələn, təmir ustasına) verilmişdir | 65,00 | |
| 28.01.2015 | 201, Xammal və materiallar | Materiallar (ehtiyat hissə) xidmətin göstərilməsi üçün daxili qaimə tərtib edilməklə anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) xidməti icra edən maddi-məsul şəxsə (məsələn, təmir ustasına) verilmişdir | | 65,00 |
| 03.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Xidmətlər başa çatdırılmış və təhvil-təslim aktı tərtib olunmaqla təhvil verilmişdir, həmçinin sifarişçiyə VHF təqdim edilmişdir. | 130,00 | |
| 03.02.2015 | 601, Satış (göstərilən xidmət, görülən iş) | Xidmətlər başa çatdırılmış və təhvil-təslim aktı tərtib olunmaqla təhvil verilmişdir, həmçinin sifarişçiyə VHF təqdim edilmişdir. | | 130,00 |
| 03.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Göstərilən xidmətlərin əsas dəyərinin üzərinə ƏDV hesablanmışdır | 54,00 | |
| 03.02.2015 | 521, Vergi öhdəlikləri | Göstərilən xidmətlərin əsas dəyərinin üzərinə ƏDV hesablanmışdır | | 54,00 |
| 03.02.2015 | 701, Satışın maya dəyəri | Xidmət göstərilməsi zamanı istifadə olunan materiallar xidmətlərin təhvil təslim edildiyi üçün təmirçi maddi-məsul şəxsin üzərindən silinmişdir | 65,00 | |
| 03.02.2015 | 201, Xammal və materiallar | Xidmət göstərilməsi zamanı istifadə olunan materiallar xidmətlərin təhvil-təslim edildiyi üçün təmirçi maddi-məsul şəxsin üzərindən silinmişdir | | 65,00 |

## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

16 noyabr - «5», «(5)» və «6».
20 noyabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«7» - Yol vergisi:** Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar onların aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.



beynəlxalq panoram

# Offşorlarla mübarizə vergi daxilolmalarını artırır

Dünyada «vergi cənnətlərinə» qarşı başlanan mübarizə müsbət nəticə verməyə başlayıb. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına əsasən, müxtəlif ölkələrin hökumətlərinin gizli hesablar açmaq və vergidənyayınma halları ilə apardıqları mübarizəni gücləndirməsi, eləcə də vergilərin könüllü bəyan edilməsi kimi tədbirlər bu prosesə ciddi təkan verib. 2017-ci ildən başlayaraq bir sıra ölkələrin vergi orqanları bu istiqamətdə qlobal mübarizə çərçivəsində avtomatik məlumat mübadiləsinə başlayacaq və vergidən yayınanların təqib olunması gücləndiriləcək.

Artıq bəzi dövlətlər vergidən yayınanlar üçün amnistiya proqramlarının qismən bağlandığını elan ediblər. Böyük Britaniya hökuməti 2016-cı ilin əvvəllərində amnistiya proqramlarını bağlayacağını bəyan edib. CAR hökuməti yaxın zamanlarda HSBC bankının İsveçrə bölməsinin yerli müştərilərini yoxlamağa hazırlaşdığını bildirib. ABŞ hökuməti xarici bankları bu ölkədən olan müştəriləri barədə məlumatları verməyə məcbur edir. Rusiya vergi qeydiyyatından asılı olmayaraq, xarici aktivlər haqqında informasiyanı könüllü açmaq haqqında qanun qəbul edib, maliyyə amnistiyası isə 2015-ci il dekabrın 31-dək davam edəcək. Başqa ölkələr də oxşar tədbirlər həyata keçirir. 2014-cü ildə 93 ölkə fiziki şəxslərin bank hesabları haqqında informasiya mübadiləsi haqqında razılaşma imzalayıblar.




Bir çox dövlətlər vətəndaşların xaricdəki hesablarındakı vəsaitlərini həmin banklardan müvafiq məlumatları əldə edənə qədər geri qaytarmağa nail ola bilib. Fransa Maliyyə Nazirliyi bəyan edib ki, aparılmış tədbirlər nəticəsində büdcəyə əlavə 2 milyard avro vəsait cəlb olunub. Almaniyada könüllü bəyanetmə proqramlarında 40.000 vergi ödəyicisi iştirak edib və bundan büdcə 1,3 milyard avro əlavə vergi gəlirləri qazanıb. Belçikada bir il ərzində 22.000 vətəndaş 1,9 milyard avro əlavə vergi ödəyib, Böyük Britaniyada isə 2015-ci ilin martına qədər 5819 könüllü bəyannamə alınıb ki, bu da büdcəyə 1,1 milyard funt (1 funt=1,6 manat) gəlir gətirib.

## Xəbər lenti

**Avropa Parlameti** deputatlarının təsdiqlədikləri saziş sənədinə əsasən, 2018-ci ildən Avropa İttifaqı və İsveçrə rezidentlərin maliyyə hesabları barədə məlumatları avtomatik mübadilə edəcəklər. İsveçrənin bu il mayın 15-də imzaladığı sazişdə tərəflərin hər il vətəndaşların adları, ünvanları, vergi üzrə identifikasiya nömrələri, eləcə də hesabları və s. barədə məlumatları bir-birinə təqdim etməsi nəzərdə tutulub.

**ABŞ** Dövlət Xəzinədarlığının Federal reyestrdə nəşr etdirdiyi statistikaya əsasən, bu ilin üçüncü rübündə rekord sayda vergi ödəyicisi - 1426 vətəndaş öz pasportunu və ya «qrin kartı»nı təhvil verərək ABŞ vətəndaşlığından imtina edib.

**Rusiya**nın Federal Vergi Xidməti vergilər üzrə informasiya mübadiləsi aparmadığı ölkələrin siyahısını nəşr etdirib. Offşor zona kimi qəbul edilən 119 ölkənin adı salınmış siyahıda Avstriya, İsveçrə, Böyük Britaniya, Braziliya da var.

**Ukrayna** Ali Radasında əmək miqrantlarının ölkənin büdcəsinə vergi ödəməli olması barədə qanun layihəsi müzakirə edilib.

**Böyük Britaniya**da bu il noyabrın 1-də qüvvəyə minmiş qanuna əsasən, avtomobil, ev heyvanları və könüllü tibbi yardım sığortası sahibləri üçün sığorta mükafatına qoyulan vergi artırılıb. İndiyədək sığorta məbləğinin 6%-i qədər olan həmin verginin dərəcəsi bundan sonra 9,5% olacaq.

**Cənubi Afrika**nın ali təhsil və təlim naziri hökumətə kasıb tələbələrə yardım etmək məqsədilə varlı vətəndaşlardan tutulan vergilərin artırılması barədə müraciət edib.

**Polşa**da seçkilərdə qalib gələn «Qanun və ədalət» Partiyasının bəyanatına görə, dövlət büdcəsinə yenidən baxılacaq və parlamentdə banklar haqqında yeni qanun layihəsi müzakirəyə çıxarılacaq.

**Birləşmiş Ərəb Əmirlikləri** hökuməti neft gəlirlərinin azalması ilə əlaqədar ölkədə ƏDV və ya korporativ verginin tətbiq olunmasını gündəliyə gətirib.

**Beynəlxalq Valyuta Fondu** Rumıniyanı vergi sistemini fəallaşdırmaq üçün səy göstərməyə çağırıb. BVF-nin bəyanatında bildirilir ki, Rumıniyanın 2016 və 2017-ci illər üçün planlarında vergiləri əsaslı şəkildə azaltmaq, əməkhaqqı xərclərini artırmaq nəzərdə tutulub. Bu isə gələn il ümumi daxili məhsuldakı büdcə kəsirinin üç faizə çatmasına və 2017-ci ildə daha da artmasına səbəb olacaq.

Xarici ölkələrin təcrübəsi

# İspaniya Krallığının vergi sistemi: *digər vergi növləri*



İspaniya Krallığında ənənəvi vergilərdən əlavə, yerli sahibkarlıq vergisi, şəhər torpaqlarının qiymətləndirilməsi vergisi, miras və hədiyyə vergisi, sərvət vergisi və s. tətbiq olunur.

***Yerli sahibkarlıq vergisi***

«İqtisadi fəaliyyətdən vergi» adlanan yerli sahibkarlıq vergisi sahibkarlıq, peşə və incəsənət fəaliyyəti ilə məşğul olan və İspaniyada qeydiyyatdan keçmiş, illik dövriyyəsi 1 mln. avrodan artıq müəssisələrdən tutulur. Bu vergi mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılır.Tutulan verginin məbləği hesablanarkən vergi ödəyicisinin fəaliyyəti və sahibkarlıq-peşə fəaliyyətinin həyata keçirildiyi sahə nəzərə alınır, əyalət vergi əlavəsi və xüsusi əmsal tətbiq edilərək yekun vergi öhdəliyi hesablanır. Lakin tariflər və xüsusi vergi əlavəsi tətbiq edilmiş yekun vergi öhdəliyi hər bir fəaliyyət növü üzrə ayrıca hesablanmış gözlənilən mənfəətin 15%-indən çox ola bilməz.

Bələdiyyələrin xüsusi marağında olan sahələrin inkişafı sahəsində çalışan müəssisələrin ödənilməli vergisi 95% həcmində azaldıla bilər.

***Şəhər torpaqlarının qiymətləndirilməsi vergisi***

Bu vergi şəhər torpaqları kimi təsnif edilən torpaqların dəyərinin artmasından tutulur. Vergi alıcıya hesablanır. Vergitutma bazası torpağın özgəninkiləşdirilmə tarixində onun kadastr dəyərinin müəyyən faizi ilə torpağın saxlanılma illərinin hasilinə xüsusi əmsallar (3-3,7) tətbiq edilməklə hesablanır. Bu hesablama üsulu ilə dərəcə 30%-dək ola bilər.

Yerli sahibkarlıq vergisində olduğu kimi, bələdiyyələrin xüsusi marağında olan sahələrin inkişafı üzrə fəaliyyət göstərən müəssisələrin ödənilməli vergisi də 95% həcmində azaldıla bilər. Bu vergi mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılır.

***Daşınmaz əmlak vergisi***

Daşınmaz əmlak vergisi bələdiyyələr tərəfindən daşınmaz əmlakın istifadəsindən illik baza əsasında tutulur. Bu vergi mənfəət və gəlir vergisi məqsədləri üçün gəlirdən çıxılır.

Vergitutma bazası əmlakın kadastr dəyəridir. Bu dəyər hər 8 ildən bir torpağın və binaların bazar qiyməti əsasında yenilənir. Ümumi dərəcələr aşağıdakı kimidir:

**Daşınmaz əmlak vergisinin dərəcələri**




Xüsusi hallarda qeyd olunanlar üzrə yüksək dərəcələr tətbiq edilə bilər.

***Sərvət vergisi***

Bu vergi rezidentlərin dünyanın istənilən yerindəki xalis sərvətindən tutulur. Verginin toplanmasını və inzibatçılıq işlərini muxtar regionlar həyata keçirir. Bu regionlar özlərinin vergi dərəcələrini və azadolmalarını tətbiq edə bilərlər.

Vergitutma bazası hər ilin dekabr ayının 31-nə olan xalis aktivlərin dəyəridir. Hər bir vergi ödəyicisinə 910 min dollar (azadolma muxtar regionlar üzrə dəyişir) məbləğində ümumi azadolma tətbiq edilir. Daimi yaşayış sahələri üçün azadolma məbləği 390 min dollardır. Əgər regionlar öz vergi dərəcələrini müəyyən etməyiblərsə, standart proqressiv dərəcələr tətbiq olunur. Standart dərəcələr 0,2%-dən (217 min dollar) 2,5%-dək (13,9 mln. dollar) dəyişir.

Gəlir vergisi məqsədləri üçün rezident vergi ödəyicisinin gəlir və xalis sərvət vergisi üzrə ümumi vergi yükü onun ümumi vergitutulan gəlirinin 60%-indən çox olmamalıdır. Vergi bu həddi aşarsa, vergi ödəyicisi xalis sərvətə vergi öhdəliyini 60%-dən artıq məbləğ qədər azalda bilər.

***Xalis sərvətə əlavə vergilər***

Yekun vergi öhdəliyi əsas vergi məbləğinə əlavə vergi dərəcələrini tətbiq etməklə müəyyən olunur. Cədvəldə müxtəlif kateqoriyalar üzrə dərəcələr göstərilmişdir:

| Xalis sərvət (avro) | I və II (%) | III (%) | IV (%) |
|---|---|---|---|
| 402.678,11-dək | 0 | 58,82 | 100 |
| 402.678,12-2.007.380,43 | 5 | 66,76 | 110 |
| 2.007.380,43-4.020.770,98 | 10 | 74,71 | 120 |
| 4.020.770,98-dən yuxarı | 20 | 90,59 | 140 |

Bu cədvəldəki göstəricilər muxtar regionlar üzrə müxtəlif ola bilər.

***Miras və hədiyyə vergisi***

Miras və hədiyyə vergisi muxtar regionlar tərəfindən əmlakın miras və ya hədiyyə şəklində fiziki şəxslərə ötürülməsi zamanı tutulur. Hüquqi şəxslərə belə əvəzsiz ötürülmə isə mənfəət vergisinə cəlb olunur.

İspaniya rezidenti olan hər kəs əvəzsiz əldə edilən əmlakın yerindən asılı olmayaraq, bu verginin ödənilməsi üzrə öhdəlik daşıyır. Miras və hədiyyə qismində ötürülmüş aktivlərin dəyəri bazar qiyməti əsasında qiymətləndirilir.

Hədiyyəni və ya mirası alan şəxslərə, əgər muxtar regionlar üzrə ayrı çıxılmalar nəzərdə tutulmayıbsa, aşağıdakı çıxılmalar tətbiq olunur:

- I kateqoriya - 13 yaşa qədər olan hər bir övlad üzrə maksimum çıxılma məbləği 62,2 min dollar, 21 yaşa qədər olan hər bir övlad üzrə maksimum çıxılma məbləği 20,7 min dollar və əlavə olaraq 21 yaşa qədər hər bir il üçün 5,19 min dollar;
- II kateqoriya - mərhumun doğma və ya hüquqi yolla götürülmüş 21 yaş və 21 yaşdan yuxarı olan övladı və həyat yoldaşı üçün 20,74 min dollar;
- III kateqoriya - mərhumun yaxın qohumları üçün 10,39 min dollar;
- IV kateqoriya - (digər şəxslər): çıxılma yoxdur.

Əlillərə yuxarıda qeyd olunan çıxılmalardan başqa, əlilliyin dərəcəsindən asılı olaraq 62,2 min və ya 195,33 min dollar əlavə çıxılma tətbiq olunur.

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Qırqovullar fəsiləsinə aid quş cinsi; 2.Ukrayna əsilli Azərbaycan voleybolçusunun adı; 3.Hər hansı məsələni müzakirə etmək üçün təşkilat üzvlərinin bir yerə yığılması; 4.Yalnız özünü bəyənən, yüksək tutan, daim öz mənafeyini düşünən şəxs; 5.Yunanıstanın paytaxtı; 6.Maqnezium-dəmir tərkibli, sarı-yaşıl rəngdə silikat (mineral). Zinət əşyalarının istehsalında qiymətli daş kimi istifadə olunur; 9.Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professorun adı; 13.Qədim Misir mifologiyasında axirət dünyası; 15.Amerikan mənşəli top oyunu; 16.Məşhur italyan uşaq yazıçısı və jurnalistin soyadı. «Çippolinonun macəraları» əsərinin müəllifi; 17.ABŞ-ın Texas ştatında şəhər; 18.Respublikamızda rayon; 20.Qadın adı. Antik mifologiyada və bəzi ibtidai dinlərdə qadın cinsli mifik varlıq; 21.Yayın axırında qırxılan qoyun yunu. **Soldan sağa:** 1.Vokal və ya instrumental melodiya; 5.Danışıq vaxtı telefon dəstəyi ələ götürüldükdə söylənilən ilk söz; 7.Fransa mənşəli bal rəqsi; 8.Sakit okeanın cənub hissəsində yerləşən ada-dövlət; 10.Bankın və ya sahibkarın borc iltizamlarını vaxtında ödəyə bilməməsi nəticəsində fəaliyyət göstərə bilməməsi; 11.Gürcüstanın şərqində dağ ətəyində yerləşən, turistlər arasında populyar olan tarixi qəsr və eyniadlı şəhərcik; 12.Mədaxil ilə məxaric arasındakı fərq, qalıq; 14.İttiham olunan şəxsin cinayət əməlində iştirakının olmadığını sübut edən anlayış, hüquqi termin; 19.Yaponiyada prefektura; 21.Azərbaycanın tarixi ərazisi olan Zəngəzurun ən iri göllərindən biri, qədim mahal. Aşıq Ələsgərin ana yurdu; 22.Respublikamızda coğrafi bölgə; 23.Böyük Britaniya kraliçası; 24.Azərbaycan dilində bağlayıcı; 25.Proqramlaşdırma dili.



*Gürcüstanın şərqində dağ ətəyində yerləşən, turistlər arasında populyar olan tarixi qəsr və eyniadlı şəhərcik*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kunq-Fu; 2.Armadil; 3.İlzna; 4.Orator; 5.Malta; 6.Astara; 9.Atay; 13.Atos; 15.Auditor; 16.Qambit; 17.Siqnal; 18.Ftorid; 20.Ayran; 21.Kredo. **Soldan sağa:** 1.Klavikord; 5.MBA; 7.Numizmat; 8.Elat; 10.Fedra; 11.Oktyabr *(rayonu)*; 12.İlham; 14.Aymak ; 19.Anatoli *(Banişevski)*; 21.Kadet; 22.Borc; 23.İnventar; 24.Ton; 25.Volqoqrad.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Toğrul Əsgərov qitənin bir nömrəli idmançısıdır



ABŞ-ın paytaxtı Vaşinqtonda keçirilən Milli Olimpiya Komitələri Assosiasiyasının 20-ci Baş Assambleyasında Azərbaycan güləşçisi, Olimpiya çempionu Toğrul Əsgərov mükafatlandırılıb. Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) mətbuat xidmətindən bildiriblər ki, idmançımız Baş Assambleyada Avropa qitəsi üzrə ən yaxşı kişi atleti adına layiq görülüb.

Qeyd edək ki, Milli Olimpiya Komitələri Assosiasiyası öz sıralarında 206 Olimpiya komitəsini birləşdirir. Assosiasiyanın hər il keçirilən Baş Assambleyasında mühüm məsələlərlə yanaşı, mükafatlandırma mərasimləri də təşkil olunur və qitə oyunları üzrə ən yaxşı kişi və qadın idmançılar seçilir.

Xatırladaq ki, Toğrul Əsgərov London Yay Olimpiya Oyunlarında və «Bakı-2015» birinci Avropa Oyunlarında sərbəst güləş üzrə çempion adını qazanıb.

# Azərbaycan güləşçiləri növbəti sınaq qarşısında




Noyabrın 6-dan 8-dək Moskvanın «Lujniki» Olimpiya Kompleksində və «Drujba» universal idman zalında güləş üzrə Avropa Millətlər Kuboku turniri keçiriləcək. Komanda yarışında Azərbaycan ilə yanaşı, Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna, Belarus, Polşa və Almaniya yığmaları iştirak edəcək.

Ümumilikdə yarışlarda yığmamızın idman şərəfini 25 güləşçi qoruyacaq. Turnirdə əvvəlcə qadın güləşçilər mübarizəyə başlayacaqlar. Yığmamızın heyətində Marziget Baqomedova (48 kq), Anjela Doroqan (53 kq), Nataliya Sinişin (55 kq), Alyona Kolesnik (58 kq), İrina Netreba (60 kq), Raqnetta Qurbanzadə (63 kq) və Gözəl Zutova (69 kq) yer alıblar. Qadın güləşçilərin yarışında noyabrın 6-da qrup görüşləri, bir gün sonra isə final qarşılaşmaları keçiriləcək. Millimiz Rusiya, Ukrayna, Belarus, Polşa və Türkiyə komandaları ilə yarışacaq.

Sərbəst güləş üzrə komandamızda Mahir Əmiraslanov, Ruslan Qasımov (hər ikisi 57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq), Məhəmməd Müslümov (65 kq), Hacımurad Ömərov (70 kq), Murad Süleymanov (74 kq), Hacımurad Məhəmmədsəidov (86 kq), Aslanbek Alborov (97 kq) və Ali Maqomedabirov (125 kq) mübarizə aparacaqlar.

Yunan-Roma güləşi üzrə yığma komandanın heyətində isə ölkəmizi Murad Məmmədov (59 kq), Kamran Məmmədov (66 kq), Azad Əliyev (71 kq), Rüstəm Əliyev (75 kq), Emin Əhmədov (80 kq), İslam Abbasov (85 kq), Şəhriyar Məmmədov (98 kq), Sabah Şəriəti və Oyan Nəzəriani (hər ikisi - 130 kq) təmsil edəcəklər.

Sərbəst və yunan-Roma güləşi üzrə yarışlarda noyabrın 7-də qrup görüşləri, bir gün sonra isə final görüşləri keçiriləcək. Sərbəst güləşçilərimiz Rusiya, Türkiyə, Gürcüstan, Belarus və Polşa, yunan-Roma güləşçilərimiz isə Rusiya, Ukrayna, Almaniya, Belarus və Türkiyə yığmaları ilə qarşılaşacaqlar.



Azərbaycan gimnastı Oleq Stepko Qlazqoda keçirilən dünya çempionatında paralel qollarda hərəkətlərin finalında 15,966 bal toplayaraq bürünc medala layiq görülüb. Çempionatın rəsmi saytında yer alan məlumatda qeyd olunub ki, 3-cü yerə çıxan idmançımız 2016-cı ildə Rio-de Janeyroda keçiriləcək Olimpiya Oyunlarına vəsiqə qazanıb.

Son vaxtlar İngiltərə klublarından birinə keçəcəyi barədə haqqında şayiələr dolaşan «Bavariya» futbol klubunun baş məşqçisi Xosep Qvardiola komandasında karyerasını davam etdirmək istəyir. Yaxın günlərdə ispaniyalı mütəxəssisin klub rəhbərliyi ilə yeni müqavilə imzalayacağı gözlənilir. Sövdələşmənin müddəti və şərtləri hələ açıqlanmır. Xatırladaq ki, məşqçilik karyerasında daha çox «Barselona» futbol klubunda məşhurlaşan X.Qvardiola 2013-cü ildən indiyədək «Bavariya»ya iki dəfə Almaniya çempionluğu qazandırıb.



## mozaika

texnologiya

# Piramidaların daxili müşahidə olunacaq



Yapon alimləri də daxil olmaqla, dörd ölkənin mütəxəssisləri qabaqcıl texnologiyadan istifadə etməklə piramidaların daxilinə baxmağa kömək edəcək yeni layihəyə start veriblər. Misir, Fransa, Kanada və Yaponiyadan olan alimlər «Scan Piramidis» adlı layihədə iştirak edirlər. Oktyabrın 25-də onlar Qahirə yaxınlığında mətbuat konfransı keçiriblər.

Naqoya Universitetinin dosenti Kunahiro Morişima piramidanın bu məqsədlə myuon adlı hissəciklərdən istifadə edən qurğunun yapon həmkarları ilə birlikdə nəcə quraşdırılacağı barədə məlumat verib. Qeyd edib ki, myuonlar kosmik şüaların yerin atmosferi ilə toqquşması nəticəsində yaranır. Bu hissəciklər, piramidalar da daxil olmaqla, bərk hissələrdən asanlıqla keçərək rentgenəs kopiya kimi qapalı obyekt haqda dəqiq məlumat vermək qabiliyyətinə malikdir.

tarixdə bu həftə

# 29 oktyabr – Türkiyə Cümhuriyyətinin yarandığı gün

Müasir Türkiyənin yerləşdiyi Anadolu yarımadası tarix boyu çoxlu sivilizasiyaların mərkəzi olmuşdur. Türklərin Anadoluya gəlişi XI əsrə təsadüf edir. 1071-ci ildə Malazgird döyüşündə Bizansı məğlub edən səlcuqlular paytaxtı İznikdə olan türk dövlətinin əsasını qoydular. XIII əsrin sonlarında səlcuqluların zəifləməsi fonunda Anadolunun şimal-qərbində osmanoğulları güclənməyə başladı. 1326-cı ildə mərkəzi Bursa şəhəri olan yeni siyasi idarəçilik forması - Osmanlı dövləti quruldu və ərazisinin genişlənməsi səbəbindən, paytaxt Ədirnəyə köçürüldü. Daha sonra - 1453-cü ildə Konstantinopolun tutulması ilə şəhərin adı dəyişdirildi və paytaxt İstanbul elan edildi. Dünya tarixində Osmanlı imperiyası ən uzunömürlü (600 ildən çox) və ən böyük imperiyalardan (onun üç qitədə torpaqları olmuşdur) biri hesab edilir. XIX əsrin sonlarında zəif idarəçilik, seperatçılığın güclənməsi və Avropa ərazisində vaxtaşırı baş verən məğlubiyyətlər imperiyanı həddsiz zəiflətdi. Birinci Dünya müharibəsini məğlub başa vuran Osmanlı imperiyası kənar müdaxilələr nəticəsində tamamilə parçalandı.



1923-cü il oktyabrın 29-da Qazi Mustafa Kamalın təklifi ilə Türkiyə Cümhuriyyətinin yarandığı elan olundu və Mustafa Kamal (Atatürk) respublikanın ilk prezidenti seçildi. Türkiyə Respublikası paytaxtı Ankara olan, Avropa, Asiya və Afrika qitələrinin bir-birinə ən çox yaxınlaşdığı nöqtədə yerləşən ölkədir. Torpaqlarının böyük hissəsi Anadolu yarımadasında, bir hissəsi isə Balkan yarımadasının çıxıntısı olan Trakiyada yerləşir. Ölkə üç tərəfdən Aralıq dənizi, Qara dəniz və onların arasında yerləşən Mərmərə dənizi və Egey dənizi ilə əhatə olunur. Türkiyə şərqdən Gürcüstan, Ermənistan, Azərbaycan və İran, cənubdan İraq və Suriya, qərbdən isə Yunanıstan və Bolqarıstan ilə həmsərhəddir. Ölkə əhalisinin əksəriyyəti İslam dininə inanır, rəsmi dili türk dilidir.

tam ciddi

# At oğurluğuna qarşı yeni mübarizə üsulu

Qazaxıstanda geniş yayılan at oğurluqlarının qarşısını almaq üçün atların bədəninə GPS-naviqatorlar qoyulacaq. Qazaxıstanın cənubundakı Sayram Rayon Daxili İşlər İdarəsinin rəisi, podpolkovnik Daniyar Meyrxan bildirib ki, atların dərisinin altına çip yerləşdiriləcək, bu isə həmin at oğurlanarsa, onu asanlıqla tapmağa imkan verəcək: «Atın dərisinin altında çip olduğunu cinayətkarlar bilməyəcək. Hətta onlar atı kəsib doğrasalar belə, biz onun nə vaxt oğurlandığını və hara aparıldığını biləcəyik. Artıq bu layihə üçün investor tapmışıq və yaxın vaxtlarda işə başlanacaq».

Polisdən bildiriblər ki, at oğrularını tapmaq onagörə çətinləşir ki, sahibləri bu barədə polisə gec məlumat verirlər. Çip layihəsi isə bu axtarışları asanlaşdıracaq və sürətləndirəcək.

faydalı

# Evdə lazım olar

Həmımızın həyatda tez-tez qarşılaşdığı məişət məsələlərindən biri də çiçəklərə daha düzgün qulluq etmək, onların ətrindən və gözəlliyindən uzun müddət zövq almaqdır.

Çiçəklərin ömrünü uzatmaq üçün:

- vazdakı su hər gün dəyişdirilməli, təmiz və təzə olmalıdır;
- vaza qoyulmazdan əvvəl çiçəyin yarpaqları kəsilib götürülməlidir;
  xrizantema, tülpan və qızılgül qoyulan su soyuq olmalıdır;
- çiçək dəstəsini daha çox saxlamaq üçün aspirindən və ya limon turşusundan istifadə etmək olar: 1 litr suya bir tablet əzilmiş aspirin və ya 1 qram limon turşusu, 1 çayqaşığı qənd, yarım çayqaşığı sirkə əlavə etmək olar;
- qızılgül və tülpanlar suya daha dərin yerləşdirilməlidir;
- nərgiz və çobanyastığı suyu daha tez «içdiyinə» görə, onların suyunu bol eləmək məsləhətdir;
- vazdakı su və ya maye qarışığının səviyyəsi çiçəyin saplağının üçdə birindən, başqa sözlə, 5 santimetrdən artıq olmamalıdır.

maraqlı

# Aya «uçan» saat satılıb

Aya dördüncü enişi zamanı astronavtların birinin qolunda olan saat ABŞ-da keçirilən hərracda 1,6 milyon dollardan baha satılıb. «RRAuction» satış evinin nümayəndəsi 12 dəqiqə davam edən intensiv alverdən sonra saatın floridalı biznesmen tərəfindən alındığını bildirib. ABŞ-da istehsal edilən «Bulova» saatı 1971-ci ildə Ay səthinə enən «Apollo-15» kosmik gəmisinin komandiri Devid Skottun biləyində olub. «İndiyə qədər Ayın səthinə enən bütün astronavtlar NASA-nın təchiz etdiyi və ABŞ hökumətinin mülkiyyətində olan «Omega» markalı standart xronoqraflardan istifadə ediblər. Missiya zamanı «Omega» xronoqrafının siferblatındakı şüşənin sınıq olduğunu görən Skott bundan sonra öz şəxsi saatını taxmağa məcbur olub», - satış evinin məlumatında belə deyilir.




«Apollo-15» kosmik gəmisinin missiyası 1971-ci il iyulun 26-dan avqustun 7-dək davam etmişdi. Missiya çərçivəsində amerikalı astronavtlar Devid Skott və Ceyms İrvin üç sutka ayda qalmışdılar.

## Müdriklər deyib ki...

*«Xoşbəxtliyin müalicə etdiyi dərdi heç bir dərmanla müalicə etmək olmaz».*
*Qabriel Qarsia Markes (1928-2014)*

